# YENİ AZƏRBAYCAN

22 avqust 2026-cı il, şənbə
№ 150 (7217)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə əsaslanır

## İlham Əliyev: Azərbaycanın “C6” formatında iştirakı ölkəmizin regionlararası əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfənin göstəricisidir

Bax səh. 2



## Beş illik yol xəritəsi

Bax səh. 3

## Qalib Azərbaycanın Böyük Qayıdış hədəfi



Bax səh. 4

## Həsrət bitdi...

33 il öncə işğal olunan Cəbrayıl və Füzuli bu gün yeni inkişaf mərhələsini yaşayır

Bax səh. 6

## İrəvan Bakının şərtlərini qəbul edir



Bax səh. 3

## Uzunmüddətli investisiya reytinqi

“Moody’s” beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) uzunmüddətli kredit reytinqini “Baa3” səviyyəsində, proqnozunu isə “stabil” olaraq təsdiq edib. Bu qərar SOCAR-ın maliyyə dayanıqlığının, kredit profilinin və beynəlxalq kapital bazarlarında etibarlı borcalan mövqeyinin növbəti əyani təsdiqdir. Eyni zamanda bu, şirkətin uzunmüddətli maliyyə siyasətinin və intizamının, davamlı inkişaf istiqamətində həyata keçirdiyi tədbirlərin beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyini göstərir. Nəticədə, SOCAR ötən il əldə etdiyi investisiya oluna bilən kredit reytinqini qoruyub saxlayıb.

“Moody’s”in qiymətləndirməsində SOCAR-ın Azərbaycan iqtisadiyyatı və enerji sektorunda strateji rolu, inteqrasiya olunmuş fəaliyyət modeli, sağlam maliyyə göstəriciləri və güclü kredit metrikləri reytinqi dəstəkləyən əsas amillər kimi qeyd edilib. Bildirilir ki, bu qərar qlobal iqtisadiyyatda mövcud qeyri-müəyyənliklər, beynəlxalq maliyyə bazarlarındakı dəyişkənlik, müşahidə olunan geosiyasi gərginliklər fonunda enerji bazarlarında qiymət volatilliyinin davam etdiyi bir dövrdə qəbul olunub...

Bax səh. 5

## Belçika müstəmləkəçiliyi: Təzminat mübarizəsinin 101 ili

Dünən paytaxtımızda Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə “Belçika müstəmləkəçiliyinin ədalətsizlikləri və təzminat mübarizəsinin 101 ili” mövzusunda beynəlxalq konfrans işinə başlayıb. Tədbirə Belçikanın keçmiş müstəmləkələri olan, eləcə də bu ölkələrdə neokolonial təsirlərin davam etdiyi Konqo Demokratik Respublikası (KDR), Ruanda və Burundi, həmçinin Mərakeş və Cənubi Afrika Respublikasından təmsilçilər, həmçinin Birləşmiş Millətlər Təşkilatının (BMT) nümayəndələri qatılıblar.

Konfransda iştirak edən rəsmi şəxslər arasında Konqo Demokratik Respublikasının ombudsmanı, Konqo Parlamentinin deputatları, Ruandanın Türkiyədəki səfiri və diplomatları yer alıblar.

Konfrans çərçivəsində Belçika müstəmləkəçiliyinin tarixi, onun keçmiş müstəmləkələrdə yaratdığı siyasi, sosial və iqtisadi nəticələr, müstəmləkəçilik siyasətinin doğurduğu ədalətsizliklər, tarixi həqiqətlərin araşdırılması və zərərçəkmiş xalqların təzminat tələbləri ilə bağlı məsələlərin müzakirəsi aparılıb. Belçika müstəmləkəçiliyinin tarixdən heç vaxt silinməyəcək qanlı izlərinə aid faktlarla tanış olduqda insan qeyri-iradi...

Bax səh. 6

## Donald Trampla Kim Çen Inın görüşü:
### Şimali Koreya əvvəlki dövlət deyil

Dünyanın diqqəti yenidən Koreya yarımadasına yönəlib. Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Tramp avqustun 19-da Şimali Koreya lideri Kim Çen Inla bu ilin sonuna qədər görüşmək niyyətində olduğunu açıqlayıb. Bu xəbər ilk baxışda sadəcə iki liderin yenidən görüşmək planı kimi görünə bilər, amma məsələnin arxasında Şərqi Asiyanın təhlükəsizliyindən tutmuş, nüvə silahlarının yayılmasına, ABŞ-la Çin arasında rəqabətdən Rusiya ilə Şimali Koreyanın yaxınlaşmasına qədər çox ciddi problemlər dayanır. Üstəlik, Trampın bu açıqlaması ABŞ və Cənubi Koreyanın birgə hərbi təlimlərinin miqyasının azaldılmasından sonra gəlib, bu da Vaşinqtonun Pxenyanla münasibətlərdə yeni səhifə açmağa çalışdığını göstərir. Görüşün dəqiq tarixi və yeri hələ rəsmi şəkildə açıqlanmayıb, lakin payız aylarında, xüsusilə noyabrda Çinin Şençjen şəhərində keçirilməsi planlaşdırılan Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı forumu çərçivəsində belə bir görüşün mümkünlüyü barədə müzakirələr aparılır...

Bax səh. 7

## “Könüllülər koalisiyası” yenidən toplanır...

Ukraynaya dəstək məqsədilə yaradılmış “Könüllülər koalisiyası”nın üzvləri avqustun 24-də yenidən görüşəcəklər.

Almaniyanın “Rheinische Post” qəzeti bildirir ki, Almaniya Kansleri Fridrix Merts, Fransa Prezidenti Emmanuel Makron və Böyük Britaniyanın yeni Baş naziri Endi Börnham Ukraynaya gələcək dəstək tədbirlərini müzakirə etmək üçün görüşə birgə ev sahibliyi edəcəklər. NATO görüşdə Baş katibin müavini Radmila Şekerinskanın videobağlantı vasitəsilə iştirakı ilə təmsil olunacaq. Görüşün yeri barədə hələlik məlumat verilməyib.

Görüşdə Ukraynaya hərbi və digər dəstəyin davam etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılacaq.

“Könüllülər koalisiyası” Ukraynanın dəstəklənməsi məqsədilə Fransa və Böyük Britaniyanın təşəbbüsü ilə yaradılıb. Təşəbbüs Donald Trampın Amerika Birləşmiş Ştatlarının Prezidenti seçilməsindən sonra ilkin mərhələdə Ukraynadan uzaqlaşması fonunda irəli sürülüb. Hazırda koalisiyaya əsasən Avropa ölkələrindən olmaqla, 37 dövlət daxildir. Koalisiyanın dövlət və hökumət başçılarının sonuncu görüşü iyulun ortalarında Parisdə keçirilib.



# Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə əsaslanır

## İlham Əliyev: Azərbaycanın “C6” formatında iştirakı ölkəmizin regionlararası əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfənin göstəricisidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

**- Hörmətli cənab Prezident, Azərbaycan-Özbəkistan münasibətləri son illər dinamik şəkildə inkişaf edib və ən yüksək müttəfiqlik səviyyəsinə çatıb. Özbəkistana bu yaxınlarda gözlənilən dövlət səfəriniz ərəfəsində Siz ikitərəfli münasibətlərin hazırkı vəziyyətini və inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?**

- İki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasında münasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvi dəyərlərə, həmçinin birliyə, həmrəyliyə və xalqlarımızın əsrlərlə davam etdirdiyi, nəsildən-nəslə ötürdüyü dərin qarşılıqlı rəğbətə əsaslanır. Bu möhkəm bünövrə üzərində qurulan dövlətlərarası münasibətlər son illər misli görünməmiş inkişaf mərhələsinə qədəm qoyub, ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə yüksəlib və tamamilə yeni məzmun qazanıb.

Özbəkistan Respublikasının Prezidenti, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyev ilə mənim aramda mövcud olan səmimi dostluq, qarşılıqlı hörmət və etimad Azərbaycan-Özbəkistan qardaşlığının möhkəmlənməsində, dövlətlərarası əlaqələrin hazırkı səviyyəyə qaldırılmasında və müttəfiqliyimizin inkişafında xüsusi rol oynayır. Prezident Mirziyoyevin ölkələrimiz arasında qardaşlıq, birlik və müttəfiqlik naminə yorulmaz və qətiyyətli fəaliyyəti ona Azərbaycanda dərin hörmət və rəğbət qazandırıb.

Artıq qeyd etdiyim kimi, dövlətlərimiz arasında siyasi dialoq çox yüksək səviyyədədir. Sözsüz ki, son beş ildə ən yüksək səviyyədə müntəzəm 15 qarşılıqlı səfər və sıx təmaslarımız bu əlaqələrin dinamik inkişafı və möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Bu, son beş ildə mənim üçüncü dövlət və ümumilikdə qardaş ölkəyə yeddinci səfərimdir. Gözəl və bənzərsiz Özbəkistana səfər etməkdən daim böyük məmnunluq duyuram və hər səfər mənim üçün xüsusi əhəmiyyətə malikdir. Ənənəvi olaraq bu səfərlər müstəsna qonaqpərvərlik, qardaşlıq, səmimiyyət və qarşılıqlı anlaşma mühitində baş tutur. Qardaş Özbəkistana səfərlərimdə məni ən çox sevindirən son illərdə ölkənin bütün sahələrdə sürətli inkişafıdır. Müasir şəhərlərin salınması, iqtisadiyyatın şaxələndirilməsi, genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, elmə, təhsilə, mədəniyyətə və idmana göstərilən diqqət ölkənin yüksək inkişaf tempini əyani şəkildə nümayiş etdirir.

Özbəkistan lideri, əziz qardaşım, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə ölkənin kompleks şəkildə inkişafı və tərəqqisi, həmçinin beynəlxalq nüfuzunun davamlı surətdə möhkəmlənməsi və bütün əsas sektorlarda əhəmiyyətli uğurlara nail olunması istiqamətində ardıcıl həyata keçirilən genişmiqyaslı fəaliyyət səmimi hörmət və dərin məmnunluq hissi doğurur. Bütün bunlar Prezidentin düşünülmüş siyasətinin, strateji vizyonunun və Vətənə sevgisinin, həmçinin səmərəli dövlət idarəçiliyinin nəticəsidir.

2024-cü ilin avqustunda mənim Özbəkistana dövlət səfərim, 2025-ci ilin iyulunda isə Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri oldu. Bu ikitərəfli səfərlər zamanı imzalanan çoxsaylı sənədlər, xüsusən “Strateji tərəfdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə” və “Müttəfiqlik münasibətləri haqqında Müqavilə” iki müstəqil, güclü və suveren dövlətimiz arasında təbii müttəfiqliyi rəsmi olaraq möhkəmləndirdi. Bu sənədlər ölkələrimiz arasında əlaqələrin hüquqi və siyasi əsaslarını daha da gücləndirdi və əməkdaşlığımızın gələcək inkişafı üçün yeni imkanlar açdı.

Bununla yanaşı, 2023-cü ilin avqust ayında təsis edilmiş Ali Dövlətlərarası Şura Azərbaycan ilə Özbəkistan arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi üçün mühüm institusional mexanizmə çevrildi. Bu platforma ölkələrimiz arasında uzunmüddətli əməkdaşlıq prioritetlərini müəyyənləşdirməyə, yeni təşəbbüslərin təşviqinə və müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin səmərəli şəkildə əlaqələndirilməsinə xidmət edir. Şuranın artıq Daşkənddə və Bakıda keçirilən iki iclası Azərbaycan-Özbəkistan münasibətlərinin yüksək inkişaf tempini, siyasi dialoqun ardıcıllığını və ölkələrimizin perspektivə hesablanmış birgə fəaliyyət əzmini nümayiş etdirir.

Bu gün siyasi münasibətlərimiz iqtisadiyyat, investisiya, sənaye, nəqliyyat, logistika, enerji, kənd təsərrüfatı, təhsil, elm, mədəniyyət və humanitar sahələrdə genişmiqyaslı əməkdaşlıq tədbirləri ilə daha da zənginləşir. Həyata keçirilən layihələr ölkələrimizin iqtisadi potensialını birləşdirməklə yanaşı, xalqlarımız arasında dostluq və qardaşlıq bağlarını daha da möhkəmləndirir.



Əminəm ki, qarşıdakı səfər də ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da genişləndirilməsi, yeni birgə təşəbbüslərin həyata keçirilməsi və müttəfiqlik münasibətlərimizin möhkəmləndirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malik olacaq.

**- Azərbaycan-Özbəkistan münasibətlərinin mühüm istiqamətlərindən biri iqtisadi-ticari əməkdaşlıqdır. Bu sahədə əldə edilən uğurlar barədə nə deyə bilərsiniz?**

- İqtisadi-ticari əməkdaşlığımız son illərdə sürətli inkişaf dinamikası nümayiş etdirir. Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib. Bu, əla göstəricidir. Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb.

Üç il əvvəl 500 milyon ABŞ dolları məbləğində ümumi kapitalla təsis edilən Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti ölkələrimiz arasında investisiya əməkdaşlığının inkişafı üçün mühüm platformaya çevrilib. Şirkət həm Azərbaycanda, həm də Özbəkistanda iqtisadiyyatın müxtəlif sektorlarında perspektivli layihələrin maliyyələşdirilməsinə və həyata keçirilməsinə əhəmiyyətli töhfə verir.



Bundan əlavə, Hökumətlərarası Komissiya iqtisadi, ticari, investisiya və digər sahələrdə əlaqələrin inkişafında mühüm rol oynayır. Bu günə qədər komissiyanın 15 iclası keçirilib. Bu yaxınlarda Daşkənddə keçirilən son iclasda Azərbaycan-Özbəkistan iqtisadi-ticari əməkdaşlığının mövcud vəziyyəti, qazanılan nailiyyətlər və inkişafın gələcək istiqamətləri ətraflı müzakirə olunub.

Həmçinin energetika sektorunda əməkdaşlığımız fəal şəkildə inkişaf edir. Özbəkistanın OZLITINEFTGAZ institutu və “SOCAR NIPI Neftegaz”ın bazasında yaradılan “Neftegaztexnologiya” birgə müəssisəsi 2016-cı ildən bəri neft-qaz sahəsində uğurla fəaliyyət göstərir. Bundan əlavə, 2024-cü ildə yaradılan SOCAR və “Özbəknefteqaz” SC arasında birgə müəssisə olan “Turan Energy AFEZCO” “Azərikimya” İstehsalat Birliyi tərəfindən istehsal olunan yüksəktəzyiqli polietilenin Özbəkistana ixracını həyata keçirir.

Yaşıl enerji sahəsində əməkdaşlığımız da davam edir. 2025-ci ildə Azərbaycan, Qazaxıstan və Özbəkistanın müvafiq energetika idarələri tərəfindən Bakıda “Yaşıl Dəhliz Birliyi” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis olunub. Bu birgə müəssisə Azərbaycan-Mərkəzi Asiya yaşıl enerji dəhlizi layihəsinin həyata keçirilməsini, bərpaolunan enerji ixracını və onun Xəzər dənizinin dibi ilə nəqli imkanlarını əlaqələndirmək məqsədilə yaradılıb.

İki ölkə arasında tranzit daşımalarında artım müşahidə olunur. 2025-ci ildə daşımaların həcmi 6,7 faiz artıb və 1,4 milyon tona çatıb. Bu ilin yanvar-iyun aylarında da 12,2 faizlik artım qeydə alınıb və həmin göstərici 675 min ton təşkil edib.

Özbəkistan tərəfi ilə həyata keçirilən bir sıra birgə layihələr ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinə və yeni inkişaf imkanlarının yaradılmasına əhəmiyyətli töhfə verir. İşğaldan azad edilmiş Füzuli rayonunda “Dostluq bağı” adlandırılan 100 hektarlıq nar bağının salınmasını, həmçinin “Chevrolet” və “Isuzu” markalı avtomobillərin istehsalı sahəsində əməkdaşlığı bu istiqamətdə xüsusi qeyd etmək olar. Arayış üçün deyə bilərəm ki, 2026-cı il iyulun 13-nə olan məlumata görə, ümumilikdə “Chevrolet” markalı 10 min 720 avtomobil və “Isuzu” markalı 275 avtobus istehsal edilib.

Hazırda ölkəmizdə Özbəkistan investisiyalı 130-dan çox kommersiya təşkilatı qeydiyyatdan keçib və onlar müxtəlif iqtisadi sektorlarda - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərirlər. Özbək şirkətlərinin Azərbaycanda fəaliyyəti ölkələrimiz arasında qarşılıqlı etimadın, əlverişli investisiya mühitinin və güclü iqtisadi tərəfdaşlığın göstəricisidir.

Azərbaycan ilə Özbəkistanın iqtisadi imkanları bir-birini tamamlayır və yeni əməkdaşlıq formatlarının yaradılması üçün geniş üfüqlər açır. Biz Azərbaycan şirkətlərinin Özbəkistanda və özbək şirkətlərinin Azərbaycanda daha fəal iştirakını, həmçinin birgə istehsal və investisiya layihələrinin sayının artmasını dəstəkləyirik.

Azərbaycan da Özbəkistanda investisiya layihələri həyata keçirir. Bu layihələr arasında “PASHA Holding” tərəfindən “The Ritz-Carlton” brendi altında Daşkənddə inşa edilən hotel və yaşayış kompleksini, həmçinin Daşkənd vilayətində “Sea Breeze Uzbekistan” böyük turizm və yaşayış kompleksini qeyd etmək olar.

Əminəm ki, qarşılıqlı faydaya əsaslanan iqtisadi tərəfdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək, yeni təşəbbüslərlə zənginləşəcək və Azərbaycan-Özbəkistan müttəfiqlik münasibətlərinin mühüm sütunlarından biri kimi xalqlarımızın rifahına xidmət edəcək.

**- Sizin fikrinizcə, mədəni diplomatiya Azərbaycan-Özbəkistan dövlətlərarası əlaqələrinin möhkəmlənməsində hansı rolu oynayır?**

- Azərbaycan ilə Özbəkistan arasında ortaq köklərə, dil və mədəni yaxınlığa, əsrlər boyu formalaşan mənəvi dəyərlərə əsaslanan mədəni və humanitar əməkdaşlıq münasibətlərin ayrılmaz və vacib sahəsidir. Bu sahədə həyata keçirilən əməkdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşmanın, etimadın, dostluğun və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə mühüm töhfə verir, humanitar əlaqələri yeni məzmunla zənginləşdirir.

Xalqlarımızın qarşılıqlı səyləri və dövlətlərimizin birgə dəstəyi sayəsində son illərdə mədəni-humanitar əlaqələr uğurla inkişaf edir. Birgə keçirilən mədəniyyət günləri, incəsənət festivalları, elmi konfranslar, ədəbi nəşrlər və təhsil proqramları iki ölkə arasında mədəni və humanitar gündəliyin möhkəmlənməsində xüsusi rol oynayır.

2023-cü və 2025-ci illərdə Azərbaycan Özbəkistan Mədəniyyəti Günlərinə, 2024-cü ildə Özbəkistan Azərbaycan Mədəniyyəti Günlərinə ev sahibliyi edib, həmin il Xivə şəhərində “Şuşa Günləri” keçirilib. Özbəkistandan gələn geniştərkibli nümayəndə heyəti Bakıda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsində iştirak edib.

Biz fəxr edirik ki, qardaş ölkəmizin ən qədim və nüfuzlu ali təhsil müəssisələrindən biri olan Özbəkistan Milli Pedaqoji Universiteti dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır.

Keçən il əziz qardaşım Prezident Şavkat Miromonoviçlə birlikdə Bakının mərkəzində təməlini qoyduğumuz 5 hektar sahəsi olan “Özbəkistan” parkı qardaşlığımızın daha bir rəmzinə çevriləcək.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən təşəbbüslər və layihələr iki ölkə arasında mədəni və humanitar əməkdaşlığın genişləndirilməsində böyük əhəmiyyətə malikdir.

Təhsil sahəsində əməkdaşlıq Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar tərəfdaşlığın aparıcı sahələrindən biri kimi çıxış edir. 2025-2026-cı tədris ilində Özbəkistanın 67 vətəndaşı Azərbaycanda, Azərbaycanın 176 vətəndaşı isə Özbəkistanda təhsil alıb.

Özbəkistanın təşəbbüsü ilə inşa edilən və Füzuli şəhərində fəaliyyət göstərən Mirzə Uluqbəy adına orta məktəb təhsil sahəsində əməkdaşlığın ən parlaq nümunələrindən biridir və ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin daha bir təzahürüdür. Bu nəcib təşəbbüsə, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə bərpa və tikinti işlərinə göstərilən dəstəyə görə bütün Özbəkistan xalqına və şəxsən Prezident Şavkat Mirziyoyevə səmimi minnətdarlığımızı bildiririk.

Bundan əlavə, media sektorunda əməkdaşlıq mühüm nəticələrlə yadda qalıb. 2024-cü il sentyabrın 23-25-də Daşkənddə 1-ci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda 2-ci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. 2023-cü ildə Füzulidə 1-ci Azərbaycan-Özbəkistan QHT Əməkdaşlıq Forumu, 2024-cü ildə isə Daşkənddə 2-ci Özbəkistan-Azərbaycan QHT Əməkdaşlıq Forumu təşkil olunub. Bu forumların praktik nəticəsi olaraq, 2026-cı ildə iki qardaş ölkə birlikdə ilk dəfə QHT-lər üçün qrant müsabiqəsi elan edib. Həmin müsabiqənin nəticələrinə əsasən, Azərbaycandan qalib layihələr Özbəkistanda, Özbəkistandan qalib layihələr isə Azərbaycanda həyata keçiriləcək.




Özbəkistandan Azərbaycana turist səfərlərində artım müşahidə olunur. Ölkəmizi 2024-cü ildə 46 min, 2025-ci ildə 62 min, 2026-cı ilin yanvar-avqust aylarında isə 44 min Özbəkistan vətəndaşı ziyarət edib.

Regionlararası əməkdaşlığın uğurlu inkişafını xüsusi qeyd etmək olar. Bakı-Daşkənd, İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokənd, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşmış şəhər və tərəfdaşlıq münasibətləri qurulub. Naxçıvan və Ürgənc arasında yaxın vaxtlarda qardaşlaşmış şəhər münasibətlərinin qurulması planlaşdırılır. Bu gün xalqlarımızı daha da yaxınlaşdıran, ortaq tarixi, mədəni və mənəvi dəyərləri qoruyan, gələcək nəsillər arasında dostluğu və qarşılıqlı etimadı gücləndirən əməkdaşlıq üçün mühüm platformalardan biri olan Azərbaycan ilə Özbəkistan arasında qardaşlaşmış şəhər təşəbbüsləri xüsusilə əhəmiyyətlidir.

Beləliklə, Azərbaycan ilə Özbəkistan arasında mədəni-humanitar əməkdaşlıq təkcə ikitərəfli münasibətlərin vacib sahəsi deyil, həm də ortaq dəyərlərimizi, zəngin mədəni irsimizi və xalqlarımız arasındakı qardaşlıq bağlarını qoruyan gələcəyə yönəlmiş strateji humanitar körpüdür.

**- Hörmətli cənab Prezident, Azərbaycan və Özbəkistan beynəlxalq platformalarda da səmərəli əməkdaşlıq edir. Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində bu əməkdaşlığı necə qiymətləndirirsiniz və Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın inkişaf perspektivləri barədə nə deyə bilərsiniz?**

- Ölkələrimizin həm ikitərəfli, həm də çoxtərəfli formatlarda mühüm məsələlərin həlli üzrə birgə səyləri yüksək qiymətə layiqdir. İki qardaş ölkənin - Azərbaycanın və Özbəkistanın bütün məsələlərdə bir-birini daim dəstəkləməsi faktı qürur hissi doğurur.

Azərbaycan ilə Özbəkistan arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi. Təşkilat çərçivəsində əməkdaşlığa dair əsas məsələlər müzakirə edildi və TDT-nin möhkəmləndirilməsi, Türk dünyasında daha sıx birliyin təmin edilməsi, onun siyasi, iqtisadi və hərbi gücünün artırılması, həmçinin qlobal arenada təsir və güc mərkəzinə çevrilməsi məqsədilə bəyannamələr imzalandı.

Azərbaycan və Özbəkistan TDT-ni təkcə dövlətlərarası əməkdaşlıq platforması kimi deyil, həm də ortaq tariximizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi gələcəyə daşıyan mühüm birlik kimi dəyərləndirir.

Azərbaycanın və Özbəkistanın TDT daxilində siyasi dialoqun, iqtisadi əlaqələrin, nəqliyyat və logistika imkanlarının, təhsil, elm və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafına verdikləri töhfə türk dövlətləri arasında inteqrasiyanın daha da dərinləşməsinə xidmət edir.

Əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycanın Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta Dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq.

Azərbaycan ilə Özbəkistanın ortaq türk irsinin qorunması və təşviqi istiqamətində həyata keçirdikləri təşəbbüslər bu böyük mənəvi irsin gələcək nəsillərə ötürülməsi baxımından misilsiz əhəmiyyətə malikdir.

Ölkələrimiz digər türk təşkilatları çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət verir. Özbəkistanın 2025-ci ilin may ayında Türk Mədəniyyəti və İrsi Fondunun tamhüquqlu üzvü qəbul edilməsi əhəmiyyətli və dərin məmnunluq doğuran hadisə oldu. Zəngin tarixi irsə, qədim dövlətçilik ənənələrinə və özünəməxsus mədəni dəyərlərə malik Özbəkistanın bu Fonda qoşulması Türk dünyasının ortaq irsinin qorunması və təşviqi sahəsində əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

Beləliklə, ölkələrimizin TDT, həmçinin digər türk təşkilatları çərçivəsində fəal əməkdaşlığı Türk dünyasının daha sıx inteqrasiyasına və beynəlxalq arenada vahid mövqeyinin möhkəmlənməsinə töhfə verməyə davam edəcək.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərinə gəldikdə qeyd etmək lazımdır ki, son illərdə bu əlaqələr müttəfiqlik, strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik şəkildə inkişaf edib. Tarixi və mədəni yaxınlıq, ortaq mənəvi dəyərlər kimi mühüm amillər Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında mövcud əlaqələrin möhkəm təməlini təşkil edir.

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqun genişləndirilməsinə, iqtisadi əlaqələrin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya imkanlarının artırılmasına, həmçinin enerji və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Bu baxımdan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri regional əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi və birgə təşəbbüslərin müzakirəsi üçün çox vacib nüfuzlu platformalardan biridir.

Keçən ilin noyabrında Daşkənddə Özbəkistanın sədrliyi ilə keçirilən 7-ci Məşvərət Görüşündə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı ilə bağlı qərar qəbul edildi. Bu prosesdə göstərdikləri dəstəyə görə Özbəkistan Respublikasının Prezidentinə, həmçinin Mərkəzi Asiyanın digər dövlət başçılarına bir daha səmimi təşəkkürümü bildirirəm.

Azərbaycanın bu prosesə fəal qoşulması nəticəsində əvvəllər “C5” adlanan əməkdaşlıq formatı faktiki olaraq “C6” formatına çevrilib, regional dialoq və strateji tərəfdaşlıq isə yeni məzmun və miqyas qazanıb.

Azərbaycanın bu formatda tamhüquqlu iştirakı ölkəmizin Mərkəzi Asiya ilə münasibətlərə verdiyi strateji əhəmiyyəti nümayiş etdirir. Məşvərət görüşləri çərçivəsində aparılan diskussiyalar region ölkələri arasında qarşılıqlı etimadı daha da gücləndirməyə, yeni əməkdaşlıq sahələrini müəyyənləşdirməyə və regional inkişaf naminə mühüm təşəbbüsləri həyata keçirməyə imkan verir.

Həmçinin Azərbaycanın bu formatda iştirakı ölkəmizin regionlararası əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfənin göstəricisidir. Bu platforma çərçivəsində yaradılmış dialoq və əməkdaşlıq mexanizmləri təkcə dövlətlərarası münasibətlərin inkişafına deyil, həm də Avrasiya məkanında sülhün, sabitliyin və davamlı tərəqqinin təmin olunmasına xidmət edir.

Beləliklə, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında formalaşan hərtərəfli əməkdaşlıq qarşılıqlı hörmət, etimad və ortaq maraqlar üzərində qurulmuş strateji tərəfdaşlığın nümunəsidir.

Azərbaycan və Özbəkistan, həmçinin üzv və iştirakçı olduqları bütün beynəlxalq təşkilatlarda və çoxtərəfli platformalarda, xüsusən də BMT, İƏT, TDT, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlıq edir.

**- Hörmətli cənab Prezident, maraqlı və məzmunlu müsahibəyə görə Sizə təşəkkür edirəm. Özbəkistana dövlət səfəriniz ərəfəsində Siz qardaş xalqa nə arzu etmək istərdiniz?**

- Bu gözəl imkandan istifadə edərək, qardaş Özbəkistan xalqını ölkənin dövlət müstəqilliyinin qarşıdan gələn 35-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik etmək, dərin hörmətimi və ən xoş arzularımı çatdırmaq, sülh, əmin-amanlıq, tərəqqi və yeni-yeni nailiyyətlər arzulamaq istərdim.

# Beş illik yol xəritəsi

## “Turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” təsdiqlənib

Prezident İlham Əliyev “Turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nı təsdiqləyib. Sənəd milli turizm sənayesinin inkişafı ilə bağlı mühüm hədəf istiqamətlərini özündə əks etdirir. Proqramda müvafiq qurumlar qarşısında turizm potensialından səmərəli istifadə, beynəlxalq turizm marşrutlarının inkişaf etdirilməsi və yeni marşrutların yaradılması, regionlar və kəndlər üzrə turizm inkişaf konsepsiyalarının hazırlanması, sağlamlıq və tibbi turizmin inkişafı, ölkəmizin reytinqinin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi ilə bağlı konkret vəzifələr müəyyən edilib.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə turizm infrastrukturunun yaradılması və həmin ərazilərə turist səfərlərinin təşkili istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi ilə əlaqədar tədbirlərin icrası müəyyənləşib.



### Turizm sektorunun iqtisadiyyatda payı 5,4 faizə yüksəlib

Ölkəmizdə yürüdülən dövlət siyasətinin ardıcıllığı və çevikliyi sayəsində turizm sahəsində müsbət inkişaf meyillərinin davamlılığı təmin edilməkdədir. 2025-ci ildə turizm üçün xarakterik sahələrdə 7 milyard manata yaxın əlavə dəyər yaradılmış, sektorun iqtisadiyyatda payı tarixdə ilk dəfə 5,4 faizədək yüksəlib və pandemiyadan əvvəlki 2019-cu ildə qeydə alınan ən yüksək nəticəni (4,5 faiz) 0,9 faiz-bənd üstələyib. 2019-2025-ci illərdə turizm xidmətlərinin ixracı nəticəsində Azərbaycana 8,8 milyard dollar həcmində xarici valyuta daxil olub, onun 2 milyard dolları və ya qeyri-neft-qaz sektorunun ümumi xidmət ixracının 28,5 faizi 2025-ci ilin payına düşüb.

Turizm sektorunun böyüməsi ölkədə məşğulluq üçün əlverişli mühit yaradıb. 2025-ci ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə fəaliyyəti sahəsində məşğul olanların sayı 121 min nəfər təşkil edib, bu göstərici 2019-cu illə müqayisədə 56,1 faiz (43,5 min nəfər) artıb. Eyni zamanda həmin fəaliyyət sahəsinin muzdlu əmək bazarındakı payı 2,9 faiz bəndi yüksələrək 4,6 faizə çatıb.

Dünya İqtisadi Forumu tərəfindən dərc edilən “Səyahət və Turizmin İnkişafı İndeksi 2024” hesabatına əsasən, turizmin inkişaf səviyyəsinə görə Azərbaycan Respublikası hesabatla əhatə olunan 119 ölkə arasında 56-cı yerdə qərarlaşıb.

Ölkəmiz Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə Qırğızıstanı (102), Tacikistanı (99), Özbəkistanı (78) və Ermənistanı (72) qabaqlasa da, Gürcüstandan (45) və Qazaxıstandan (52), müvafiq olaraq, 11 və 4 pillə geridə qalır.

### Yeni təşviqedici siyasət

Ölkəmizdə viza rejimi sadə və əlverişlidir. “ASAN Viza” elektron portalının fəaliyyəti ikitərəfli vizasız gediş-gəliş sazişləri üçün hüquqi istinadlardan biridir və xaricilərin ölkəmizdə 30 günədək qalmaq hüququ verir. Avropa İttifaqına üzv ölkələrin vətəndaşları üçün də viza rejimi xeyli sadələşdirilib. Bu amillər turizm üçün mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda turizmə təsir edəcək mühüm amil - investisiya mühiti münbit və sağlamdır. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın investisiya vəziyyətini yüksək reytinqlərlə dəyərləndirib. Məsələn, “Fitch Ratings” Azərbaycanın beynəlxalq dərəcəli investisiya reytinqini “BBB-” səviyyəsində təsdiqləyib.

Yəni, turizmin inkişafı üçün imkanlar böyükdür. Ancaq turizmin regionlarda inkişafı hələ də qənaətbəxş səviyyədə deyil, ölkəmizə gələn turistlərin say artımı gözlənilən rəqəmlərdən aşağıdır. Bu rəqəmləri artırmaq üçün turizm sektorunda yeni təşviqlərin verilməsi nəzərdə tutulur.

2023-cü ildə Dövlət Turizm Agentliyi tərəfindən turistlər arasında keçirilən sorğunun nəticələri göstərir ki, yerli və xarici turistlərin gözləntiləri ilə təcrübələri arasında fərqlər, əsasən, əlverişli qiymət, gigiyena və müştəri xidməti kateqoriyaları üzrə qeydə alınıb. Bu vəziyyət turizm dəyər zənciri üzrə keyfiyyət yanaşmasının tətbiqini, əmək bazarına uyğun kadr hazırlığını, eləcə də tənzimləmənin və nəzarətin gücləndirilməsi və rəqabətyönümlü təşviq mexanizmlərinin tətbiqini zəruri edir. Bundan başqa, xidmət və qiymət bölmələri, turistlərin yerləşdirilməsi üçün əlavə infrastrukturların təkmiləşdirilməsinə ehtiyac vardır.

Aparılan təhlil və qiymətləndirmələr, maraq qrupları ilə müzakirələr, statistik müayinə və sorğuların nəticələri ümumiləşdirilərək Azərbaycanda turizm sahəsinin inkişafı üçün yeni çağırışlar müəyyən edilib. Bu məqsədlə “Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” hazırlanıb. Sənəd turizmin ölkənin sosial-iqtisadi inkişafında rolunun gücləndirilməsi, qeyri-neft-qaz iqtisadiyyatının şaxələndirilməsi, regionların rəqabət qabiliyyətinin artırılması və Azərbaycanın beynəlxalq turizm məkanı kimi mövqeyinin möhkəmləndirilməsi kimi strateji məqsədi nəzərdə tutur.

### “Böyük İpək Yolu” turizm sxemi yaradılacaq

Proqramda 3 yeni turizm və rekreasiya zonasının yaradılması, həmin zonaların tərkibində 3 turizm mərkəzinin təşkili və baş inkişaf planlarının hazırlanması, mərkəz və zonaların ərazisində, eləcə də mehmanxana və hotellərdə, digər yerləşmə vasitələrində dayanıqlı xidmətlərin göstərilməsi kimi mühüm tədbirlər nəzərdə tutulub. Həmçinin, sanatoriya-kurort müəssisələrinin və qış idman növləri üçün stadionların, arenaların fəaliyyətinin, konqreslərin və peşəkar salonların təşkili üçün investisiya layihələrinə cəlb ediləcək kreditlər üzrə faiz subsidiyalarının verilməsi qərara alınıb. Bundan başqa, hava nəqliyyatı ilə qeyri-müntəzəm (çarter) uçuşların təşkilinə görə təşkilatçıların xərclərinin kompensasiya olunması, turizm əhəmiyyətli tədbirlərin təşkilinə görə xərclərin bir hissəsinin kompensasiyası ilə bağlı subsidiya mexanizmlərinin yaradılması, turizm xidmətlərinin infrastrukturu yaradan mikro və kiçik sahibkarlıq subyektlərinə subsidiya dəstəyinin verilməsi də nəzərdə tutulur.

Proqramda hava yolu, dəmir yolu, rayonlararası avtobus, metro, ictimai şəhər nəqliyyatı üzrə sərnişindaşımaya dair məlumatların “GFTS” (General Transit Feed Specification) formatında hazırlanması, audio-bələdçi hazırlanacaq turizm nümayiş obyektlərinin siyahısının müəyyən edilməsi və həmin obyektlər üzrə 5 xarici dildə bələdçi mətnlərinin rəqəmsallaşdırılması, “Azerbaijan. Travel” rəqəmsal turizm platformasının təkmilləşdirilməsinə dair tədbirlər də yer alıb.

Azərbaycanda Bayıl Kulinariya Təcrübə Mərkəzinin və Tuğ Enoturizm Təcrübə Mərkəzinin (Şərab zavodu və üzüm bağları) yaradılması da əsas hədəflərdəndir. Digər prioritetlərdən biri “Milli dadlar” elektron qastronomiya portalının təkmilləşdirilməsi və portaldakı məlumatların beynəlxalq axtarış və süni intellekt sistemlərinə inteqrasiyası, portalın beynəlxalq və yerli arenada təbliğidir. Eyni zamanda, azı 1 beynəlxalq qastronomiya-tədbirinin, seçilmiş qastronomiya regionlarında 5 festivalın təşkili, 80 əcnəbi mütəxəssisin cəlb edilməsi yolu ilə təcrübə mübadiləsinin qurulması da hədəflər sırasındadır. Həmin ssenariyə əsasən, ölkəmizdə “Böyük İpək Yolu” turizm sxeminin yaradılması və inkişaf etdirilməsi də planlaşdırılır.

### Vizasız gediş-gəliş rejimi tətbiq olunan ölkələrin sayı artırılacaq

Sağlamlıq turizminin inkişafı strategiyasının və fəaliyyət planının hazırlanması, tibb müəssisələrinin akkreditasiyası üzrə normativ hüquqi aktların tibbi turizm istiqamətində təkmilləşdirilməsi, tibbi turizm xidmətləri göstərən müəssisələrin beynəlxalq akkreditasiya prosesinə cəlb olunması, Sağlamlıq Turizmi Konfransının keçirilməsi də başlıca istiqamətlərdəndir. Tədbirlər planına əsasən, 10 hədəf turizm bazarı üzrə regional rəqib destinasiyalarla müqayisədə rəqabətqabiliyyətli aviabilet qiymətləri səviyyəsinə nail olunmaqla, ölkəyə gələn turistlərin sayının artırılması, regionlarda yerləşən hava limanlarının beynəlxalq sərnişindaşımada payının artması məqsədilə beynəlxalq uçuşların və aşağı büdcəli aviaşirkətlərin cəlb edilməsi nəzərdə tutulur. Eyni zamanda, turistlər üçün gündəlik, həftəlik, aylıq dəmir yolu bileti paketlərinin, həmçinin destinasiyalar üzrə güzəştli bilet satışı da təşkil olunacaq. Dəmir yolu bileti satışının Qlobal Paylama Sisteminə (GDS) inteqrasiyası, Naxçıvan Muxtar Respublikasına turist səyahətlərinin təşkili şərtlərinin təkmilləşdirilməsi məqsədilə Bakı-Naxçıvan- Bakı istiqaməti üzrə çarter uçuşlarının həyata keçirilməsi və həmin reys üzrə biletlərin sifarişini təmin edən satış modelinin hazırlanması da planlaşdırılan tədbirlər sırasında yer alır. Ümumilikdə, hava nəqliyyatı ilə sərnişindaşıma və turizm siyasətinin uzlaşdırılması, vizasız gediş-gəliş rejimi tətbiq olunan ölkələrin sayının artırılması, gəlmə turizmi məqsədilə çoxdəfəlik elektron vizaların verilməsi prosesinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılacaq.

### “Turizm kəndi” konsepsiyası

Bölgələrdə kənd turizmini inkişaf etdirmək məqsədilə “Turizm kəndi” konsepsiyası üzrə normativ hüquqi baza yaradılacaq, dayanıqlı turizm, o cümlədən turizmdə iqlim fəaliyyəti ilə bağlı tənzimləmə mexanizmi təşkil ediləcək. Həmçinin, dövlət qoruqlarında (abidələrin ərazilərində) dayanıqlı turizmin təşkil edilməsi, təbiət ərazilərində, o cümlədən milli parklarda dayanıqlı turizmin təşkil edilməsi, ov turizminin inkişafı məqsədilə ov təsərrüfatlarının yenidən qurulması, Naftalan şəhərində turizmin inkişaf etdirilməsi, turizm potensialı olan kəndlərdə turizm infrastrukturunun gücləndirilməsi, dağ və macəra turizmi fəaliyyətləri üzrə peşəkar bələdçilik və təhlükəsizlik sisteminin yaradılması hədəflər sırasındadır.

### Turizmdən əldə edilən əlavə dəyərin 38 milyard manata çatdırılması hədəflənir

Dövlət Proqramının icrası nəticəsində Azərbaycan Respublikasının turizm sahəsinin regional və qlobal rəqabət qabiliyyətinin gücləndirilməsi, dayanıqlılıq prinsipləri əsasında müxtəlif turizm növləri üzrə keyfiyyətli turizm təcrübəsi təqdim edən müəyyən coğrafi ərazidə yerləşmə, nəqliyyat, infrastruktur, əyləncə və digər xidmətlərin vahid şəkildə göstərildiyi turizm çevrilməsi, turizm sektorunun sosial-iqtisadi inkişafa, o cümlədən ÜDM-in artımına, məşğulluğa və qeyri-neft-qaz ixracına töhfəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi nəzərdə tutulub. Hökumət 2030-cu ilə qədər turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərdə təxminən 40 faiz real artım hədəfləyir. Sənədə əsasən, 2026-cı ildə bu sektorda 7,5 milyard manat, 2027-ci ildə 8,5 milyard manat, 2029-cu ildə təxminən 9,7 milyard manat, 2030-cu ildə isə 12,2 milyard manat əlavə dəyərin formalaşdırılması proqnozlaşdırılır. Ümumilikdə, 2026-2030-cu illərdə turizmdən əldə edilən dəyər əmsalının təxminən 38 milyard manata çatdırılması hədəflənir.

*E.CƏFƏRLİ*

# İrəvan Bakının şərtlərini qəbul edir

## Real Ermənistan ideologiyası - Vətən müharibəsinin reallıqları...

Azərbaycanın 2020-ci il Vətən müharibəsi nəticəsində yaratdığı yeni situasiya və ölkəmizin postmüharibə davranışları Ermənistan üçün də mühüm reallıqlar formalaşdırdı. Belə ki, 200 illik tarixini işğal, talançılıq, qərəz və yalan iddialar üzərində quran Ermənistan artıq reallıqları dərk edir, XXI əsrdə regional münasibətlərin yalnız əməkdaşlıq və sabitlik məcrasında formalaşacağını başa düşür. Azərbaycanın postmüharibə dövründə irəli sürdüyü sülh təşəbbüsü, Zəngəzur dəhlizi layihəsi Ermənistanın gələcəyi üçün yeni perspektivlər açır. Bu baxımdan, rəsmi İrəvanın artıq revanşizmi bir kənara qoyaraq yeni münasibətlər sistemi yaratmasının da vaxtı çatıb...

### Paşinyanın yeni strategiyası

Belə ki, Ermənistanın Baş naziri Nikol Paşinyan avqustun 20-də hökumətin beşillik proqramının təqdimatı zamanı ölkənin tarixində yeni mərhələnin - “Dördüncü Respublika” dövrünün başlandığını bəyan edib. Onun sözlərinə görə, əvvəlki dövlət modeli münaqişə və “tarixi ədalətin bərpası” məntiqi üzərində qurulmuşdusa, yeni Ermənistanın əsas ideologiyası sülh olacaq.

Ermənistan mediasının məlumatına görə, baş nazir bildirib ki, onun irəli sürdüyü “Real Ermənistan” ideologiyası artıq Ermənistan Respublikasının rəsmi ideologiyasına çevrilib. Paşinyanın fikrincə, 7 iyun 2026-cı il seçkilərində də məhz bu siyasi xətt qalib gəlib. O bildirib ki, Üçüncü Respublika münaqişə məntiqinə uyğun yaradılmışdı, Dördüncü Respublika isə sülh məntiqi əsasında formalaşacaq. Paşinyan Üçüncü Respublikanın ideoloji əsaslarından birinin “tarixi ədalətin bərpası”, bunun praktiki istiqamətlərindən birinin isə Qarabağ hərəkatı olduğunu açıq şəkildə etiraf edib. Onun sözlərinə görə, Ermənistanın yaşlı və orta nəsil siyasi xadimlərinin əhəmiyyətli hissəsi məhz Qarabağ hərəkatından çıxıb.

Paşinyan hakim “Vətəndaş Müqaviləsi” Partiyasının 2021-ci il seçki proqramının da həmin ideologiyanın təsiri altında hazırlandığını xatırladıb. O, həmin proqramda Şuşa və Hadrutun “azad olunması” ilə bağlı müddəaların yer aldığını da etiraf edib. Lakin Paşinyana görə, elə 2021-ci il seçkiləri zamanı özü üçün əsas siyasi vəzifənin artıq sülh gündəliyi olduğunu anlayıb.

Qeyd edək ki, Paşinyan bununla Azərbaycanın irəli sürdüyü sülh strategiyasını təsdiqləyir. Rəsmi Bakı müharibədən sonra Ermənistana neft məhsulları ixrac etməklə, ərazisindən yüklərin Ermənistana keçməsinə icazə verməklə regional münasibətlər üçün bir formul irəli sürmüşdü. Paşinyanın yeni bəyanatı isə bu formulun qəbulu deməkdir. Bəli, Bakının Cənubi Qafqaz üçün yaratdığı strateji yol xəritəsi Ermənistanı yeni gələcəyə daşıyan meyara çevrilir.



### Yeni münasibətlər sistemi - Konstitusiya qəbul olunandan sonra...

Paşinyanın bəyan etdiyi Dördüncü Respublika ideyası bütövlükdə regionun təhlükəsiz inkişafından stimul alacaq. Ermənistan rəhbərliyi dərk edir ki, revanşizm artıq bölgə üçün xarakterik model ola və ya mahiyyət kəsb edə bilməz. Ötən 30 il ərzində israrla davam etdirilən işğal siyasəti bu ölkəni dalana gətirib çıxardı - 2020-ci il Vətən müharibəsi isə bu dalanın bitməsi üçün bir şans yaradıb. Paşinyan yeni strategiyası ilə Azərbaycanın yürütdüyü siyasəti təsdiqlədiyini bildirir. Yeri gəlmişkən, Ermənistan hökumətinin 2026-2031-ci illər üzrə inkişaf proqramı da analoji mahiyyəti kəsb edir. Qeyd edək ki, sənəddə Azərbaycan və Türkiyə ilə münasibətlərə dair əsas siyasət istiqamətləri də yer alıb. Proqrama əsasən, Ermənistan hakimiyyəti Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin imzalanması və ratifikasiyası istiqamətində işləri davam etdirmək niyyətində olduğunu bildirir. Bundan əlavə, İrəvan hər iki ölkənin vətəndaş cəmiyyətləri arasında təmasları aktivləşdirmək, Ermənistan və Azərbaycan biznesi arasında əlaqələri inkişaf etdirmək və ikitərəfli ticarətin həcmini artırmaq niyyətindədir. Ermənistan sülhün institutsionallaşdırılması çərçivəsində növbəti beş il ərzində Azərbaycanla ticarət əlaqələri qurmağı nəzərdə tutur. Türkiyəyə gəldikdə isə proqramda diplomatik münasibətlərin qurulması və Ermənistan-Türkiyə sərhədinin açılması nəzərdə tutulur. Vurğulanmalıdır ki, sənəddə Ermənistanın yeni konstitusiyasının qəbul edilməsi planlarından da bəhs olunur. Layihənin ictimai müzakirəyə çıxarılması, daha sonra isə referendumun keçirilməsi nəzərdə tutulur.

Təbii ki, bu strategiya özlüyündə müsbət amildir - amma Ermənistan hakimiyyəti unutmamalıdır ki, Türkiyə ilə münasibətlərin normallaşması prosesi birbaşa Azərbaycanla bağlıdır. Başqa sözlə, Türkiyə rəsmilərinin də hər zaman bəyan etdiyi kimi, Ankaranın əsas şərti Azərbaycan ilə sülh müqaviləsinin imzalanmasıdır. Bunun üçün isə Ermənistan yeni mərhələdə əsas addımı atmalı - Konstitusiyasında müvafiq dəyişiklikləri etməlidir. İrəvan Azərbaycana qarşı qondarma ərazi iddialarından əl çəkdiyini rəsmən nümayiş etdirməlidir. Bu addım Ermənistan hökumətinin müəyyənləşdirdiyi yol xəritəsinin uğurlu inkişafına yol açacaq. Əks halda, Ermənistanın bu strategiyası da ikibaşlı oyun kimi yadda qalacaq.

### Paşinyan Azərbaycan kəndlərinin qaytarılmasının vacibliyini bildirir

Sülh prosesinin bir nüansı da delimitasiya prosesi ilə bağlıdır. Paşinyan hazırlanan proqramla bağlı danışarkən bildirib ki, İrəvan və Bakı tərəfindən razılaşdırılan delimitasiya prinsipinə əsasən, Kərki, Bərxudarlı və Yuxarı Əskipara Ermənistan ərazisinə daxil deyil. Yəni, Azərbaycana qaytarılmalıdır. Anklav kəndlərlə bağlı bu açıqlama da İrəvanın Azərbaycanın müəyyənləşdirdiyi sülh prosesini izlədiyini göstərir. Qeyd edək ki, adıçəkilən kəndlər Azərbaycanın ərazi bütövlüyü məsələsində xüsusi əhəmiyyət daşıyan yaşayış məntəqələridir.

Bu kəndlərin taleyi iki ölkə arasında aparılan delimitasiya prosesinin ən həssas istiqamətlərindən biri olaraq qalır. Qeyd edək ki, 2024-cü il aprelin 19-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında müvafiq dövlət sərhədinin delimitasiyası üzrə komissiyaları arasında keçirilən görüşdə delimitasiya prosesinin ilkin mərhələsi kimi Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı yaşayış məntəqələri Azərbaycana qaytarılmışdı. Paşinyanın səsləndirdiyi fikirlər isə delimitasiya prosesinin gələcək mərhələsinin də davam etdirilməsi üçün müsbət ştrixlər yaradır. Ən əsası isə Paşinyanın da bildirdiyi kimi, “Bu məsələ həll edilməlidir, lakin hərbi yolla deyil. Bu, artıq bağlanmış keçmişin səhifəsidir”.

*SADİQ*

# Qalib Azərbaycanın Böyük Qayıdış hədəfi

Yeni strateji mərhələdə Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin güclü diplomatiyası və Ordumuzun şücaəti sayəsində işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın təmin edilməsi qalib Azərbaycanın 5 mühüm prioritetindən biri kimi müəyyənləşdirilib. Bu prioritet çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəldilməsi, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyi təmin etməklə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsinə nail olmaq hədəflənib. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixində imzaladığı sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib.

Dövlət Proqramının uğurlu icrasını təmin etmək üçün geniş tədbirlər planı hazırlanıb və ötən dövrdə həmin tədbirlərin reallaşdırılması üçün böyük iş həcmi yerinə yetirilib. Artıq Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası tamamlanmaq üzrədir və Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncama uyğun olaraq yeni Dövlət Proqramı hazırlanır. Böyük Qayıdış proqramının icrası Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının digər dövlət və özəl qurumlarla sıx koordinasiyalı fəaliyyəti şəraitində təmin edilir.



## Geniş əhatə dairəsinə malik olan strateji əhəmiyyətli sənəd

Postmüharibə dövründə qalib Azərbaycanın qarşısında təxminən 11 min kvadratkilometr ərazinin bərpası və məskunlaşdırılması kimi mühüm vəzifə dayanır. Mənfur düşmən otuz illik işğal illərində bu yerlərdə ağlasığmaz vəhşiliklər törədərək hər şeyi dağıdıb. Bu baxımdan dövlət başçısının sərəncamı ilə təsdiqlənən Böyük Qayıdışa dair I Dövlət Proqramı kifayət qədər geniş əhatə dairəsinə malik olan strateji əhəmiyyətli bir sənəddir. Bunu quruculuğun, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlişinin yol xəritəsi də adlandırmaq mümkündür.

Dövlət Proqramının ən mühüm səciyyəvi cəhətlərindən biri ondan ibarətdir ki, sənəd hazırlanarkən hazırkı qlobal trendlər əsas götürülüb ki, bu da Azərbaycanın müasirləşmə xətti ilə tam uzlaşır. Son onilliklər ərzində inkişaf etmiş ölkələrdə inklüzivlik, bərabər imkanlara əsaslanan inkişaf və regional bərabərsizliklərin aradan qaldırılması, rəqəmsal inkişaf, dairəvi iqtisadiyyat və yerli istehsal, "ağıllı" və dayanıqlı yaşayış məntəqələri, infrastruktur, vətəndaş iştirakçılığı kimi amillər idarəetmənin yeni istiqamətləri kimi önə çıxıb. Bəhs olunan Dövlət Proqramının hazırlanması zamanı sözügedən amillər ətraflı araşdırılıb və onların mümkün təsirləri təhlil edilib. Həmçinin işğaldan azad olunmuş ərazilərin bərpası və dayanıqlı inkişafı istiqamətində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin məqsədləri müəyyənləşdirilərkən Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınıb. Sənəddə də vurğulandığı kimi, Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə uyğunlaşdırılıb.

Dövlət Proqramının məqsəd və vəzifələrinə uyğun olaraq bir sıra mühüm istiqamətlər müəyyənləşdirilib. Bunlar aşağıdakılardır:

- Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili,
- Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini,
- Əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması,
- Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması,
- Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası,
- Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi.

## Ən önəmli məsələlərdən biri - təhlükəsizliyin təmin olunması, ərazilərin minalardan təmizlənməsi

Qalib Azərbaycan azad ərazilərimizə böyük qayıdışı tez və layiqli şəkildə təmin etmək əzmindədir və burada təhlükəsizlik önə çəkilir. Sənəddə xüsusi olaraq vurğulanır ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün ən önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, kənd təsərrüfatı təyinatlı ərazilərin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir.

Dövlət Proqramında təhlükəsizlik və azad ərazilərimizin minalardan, digər partlamamış hərbi sursatlardan təmizlənməsi zərurətinin ön plana çəkilməsi təsadüfi deyil. Mina terroru Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi çoxsaylı müharibə cinayətləri sırasında xüsusi yer tutur. Hazırda beynəlxalq təşkilatların da təsdiqlədikləri kimi, Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasında yer alır. Verilən məlumatlara görə, ermənilər işğal illərində və 44 günlük müharibədən sonra ərazilərimizdə 1 milyondan çox mina basdırıblar. Acınacaqlı haldır ki, insanlar ayaq basdıqları ən ağlagəlməz yerlərdə belə mina partlayışının qurbanlarına çevrilə bilərlər. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimizi Ermənistanın minalarla çirkləndirməsi nəticəsində Vətən müharibəsi başa çatandan (10.11.2020-ci il tarixdən etibarən) indiyədək 436 nəfər zərər çəkib. Onlardan 73 nəfər həlak olub, 363 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb ki, bu da vəziyyətin son dərəcə ciddiliyindən xəbər verir.

Qalib Azərbaycan işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsinə müharibə başa çatandan dərhal sonra start verib.

Verilən məlumatlara əsasən, 2021-2025-ci illər ərzində ümumilikdə 248 min 391,6 hektar ərazi mina və partladılmamış hərbi sursatlardan təmizlənib. Minatəmizləyənlərin peşəkarlığı və fədakarlığı sayəsində aşkarlanan minaların sayı da kifayət qədər çoxdur. 2021-2025-ci illər ərzində işğaldan azad olunmuş ərazilərdə 20 min 272 ədəd tankəleyhinə mina və 34 min 213 ədəd piyadaəleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

İşğaldan azad olunmuş ərazilərdə minatəmizləmə fəaliyyəti 2026-cı ilin əvvəlindən eyni intensivliklə davam etdirilir. ANAMA-dan verilən məlumata görə, azad edilmiş ərazilərdə cari ilin iyul ayında 614 piyada əleyhinə mina, 174 tank əleyhinə mina, 2106 partlamamış hərbi sursat (PHS) aşkarlanıb. Bildirilib ki, ay ərzində 8 012,7 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

## Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının canlandırılması

Sənədə əsasən, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın təmin edilməsi üçün əsas hədəf göstəricisi postmünaqişə dövründə ərazilərin iqtisadi cəhətdən özü-özünü təmin edən regiona çevrilməsidir. Dövlət Proqramının icrasının arxada qalan illəri ərzində azad ərazilərin həm sənaye, həm də kənd təsərrüfatı imkanlarından geniş istifadə olunması və bu əsasda geri qayıdan sakinlərin məşğulluğunun təmin edilməsi istiqamətində mühüm layihələr reallaşdırılıb. Vacib məqamlardan biri ondan ibarətdir ki, hər iki istiqamətdə müasir və innovativ yanaşmalar tətbiq olunur.

Artıq azad edilmiş ərazilərdə yaradılmış sənaye parklarında uğurlu nəticələr əldə edilir. Belə ki, Ağdam Sənaye Parkı qısa müddətdə regional iqtisadi mərkəzə çevrilib. İndiyədək Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən 171,68 milyon manat investisiya yatırılıb. Ölkənin ikinci ən böyük sənaye parkında fəaliyyət göstərən müəssisələr tərəfindən 1,86 milyard manatlıq məhsul satışı həyata keçirilib. Bunun 82,33 milyon manatlıq hissəsi ixracın payına düşür.

Sənaye parkında 1000-dən çox daimi iş yeri yaradılıb. İşə qəbul zamanı əsasən Ağdam və ətraf rayonlardan olan vətəndaşlara üstünlük verilir ki, bu da bölgədə məşğulluğun artırılmasına mühüm töhfədir. Sənaye parkında 31 sahibkarlıq subyektinə rezident, 4 sahibkara isə qeyri-rezident statusu verilib.

Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında isə 19 rezident və 3 qeyri-rezident qeydiyyatdan keçib. Parkda 43,8 milyon manatdan çox investisiya yatırılıb və 100-ə yaxın iş yeri yaradılıb.

O cümlədən işğaldan azad olunmuş ərazilərin aqrar imkanlarından geniş istifadə olunması üçün bütün zəruri şərtlər var. Xüsusilə də bu yerlərin münbit torpağı və su ehtiyatlarının zənginliyi kənd təsərrüfatında yüksək məhsuldarlıq əldə edilməsinə şərait yaradır. Qeyd etmək yerinə düşər ki, ölkəmizin su ehtiyatlarının təxminən 25 faizi məhz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında formalaşır.

Məlumdur ki, postmüharibə dövründə azad ərazilərdə quruculuq-bərpa işləri Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq "yaşıl zona" konsepti və innovativ yanaşmalar əsasında həyata keçirilir. Hazırda bunun təzahürlərini həmçinin aqrar sektorda da aydın şəkildə görmək mümkündür. Aqroparkların yaradılması da buna yaxşı nümunədir. Hazırda Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə 20 oktyabr 2022-ci il tarixində birinci mərhələsi istifadəyə verilən "Dost" aqroparkı uğurla fəaliyyət göstərir. Bu kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Əlamətdar haldır ki, "Dost" aqroparkının ət məhsulları satış bazarlarına "Made in Qarabağ" etiketi ilə çıxarılır.

Geniş aqrar potensiala malik Laçında isə Aqro-Sənaye Parkı yaradılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2023-cü il avqustun 26-da açılışı olmuş "Laçın Aqro-Sənaye Parkı" fəaliyyətini genişləndirir. 27 may 2025-ci il tarixində Prezident İlham Əliyev aqro-sənaye parkında "LATIFA" tikiş fabrikinin açılışına qatılıb.

Bütövlükdə, aqroparklar müasir aqrar istehsalın təşkili, yeni texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması baxımından mühüm rol oynayır. Mütəxəssislər bildirirlər ki, innovativ təsərrüfatlar Qarabağın iqtisadi gələcəyini müəyyənləşdirəcək.

## Güclü maliyyə təminatı və geniş infrastruktur quruculuğu

Aydın məsələdir ki, zəruri infrastruktur yaradılmadan azad ərazilərin dayanıqlı məskunlaşdırılmasını təmin etmək mümkün deyil. Sənəddə vurğulanır ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması xüsusi önəmə malikdir. Bu zərurət nəzərə alınmaqla Böyük Qayıdış proqramının icrasının ilkin mərhələsindən başlayaraq minalardan təmizlənmiş ərazilərdə müxtəlif təyinatlı infrastruktur obyektlərinin tikintisi həyata keçirilib və bu istiqamətdə işlər uğurla davam etdirilir. Ötən ilin noyabr ayında Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində Qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclası keçirilib və tədbirdə böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlərə diqqət çəkilib. Təqdim olunan statistika çox zəngindir. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib.

Böyük Qayıdışın inteqrasiyalı yanaşma ilə təmin olunması real nəticələr verir. Artıq "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı", 8 şəhərin Baş planı, 3 şəhərin isə Müfəssəl planı təsdiqlənib, bir sıra digər şəhərlərin Baş planları isə işlənilmə mərhələsindədir. Ötən dövrdə azad ərazilərdə Zəngilanda, Füzulidə və Laçında olmaqla 3 beynəlxalq hava limanının istifadəyə verilməsi Azərbaycanın gücünü göstərir. Azad ərazilərdə tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı baş tutub. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün inşası planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksək gərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub. Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb.

Azad ərazilərdə quruculuq-bərpa işləri cari ildə də eyni intensivliklə davam etdirilir. Burada birinci yarımildə Böyük Qayıdış proqramı üzrə 340 layihə icra olunub. Maliyyə Nazirliyinin məlumatına görə, bu layihələrin icrasına 1 milyard 64,1 milyon manat xərclənib. O cümlədən birinci yarımildə Böyük Qayıdış proqramı üzrə icra edilmiş layihələrin 76-sı nəqliyyat, 182-si sosial, 36-sı su təsərrüfatı və meliorasiya, 11-i energetika və sənaye, 19-u müdafiə və hüquqmühafizə, 16-sı isə sair layihələr olub.

Azad ərazilərdə həyata keçirilən quruculuq- bərpa işləri güclü maliyyə təminatı ilə dəstəklənir. Bütövlükdə, 2020-2026-cı illər ərzində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına 30,5 milyard manat vəsait ayrılıb. 2026-cı ildə bu məqsədlə 3,5 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

## Azad ərazilərin məskunlaşdırılması

Müvafiq Dövlət Proqramında yaşayış məntəqələrinin bərpası və məskunlaşdırılması ilə bağlı geniş tədbirlər planı hazırlanıb və uğurla həyata keçirilməkdədir. İşğaldan azad olunmuş ərazilərin məskunlaşdırılmasına Zəngilan rayonunda start verilib. Rayonun Ağalı kəndi qaçqın və məcburi köçkün soydaşlarımızın yurd yerlərinə köçünün ilk ünvanı olub. Bu əlamətdar hadisə 19 iyul 2022-ci il tarixində yaşanıb. Burada 27 il ərzində ağır məcburi köçkünlük taleyi yaşayan sakinlər üçün hər cür rahatlıq təmin edilib. Qeyd edək ki, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Ağalıya ilk köç zamanı 41 ailə doğma kəndə qayıdıb və sonradan Ağalıya daha bir neçə köç karvanı yola salınıb.

Bundan sonra bərpa olunan yaşayış məntəqələrinin məskunlaşdırılması intensivləşib. Tarixi şəhərimiz olan Şuşanın, Laçının, Kəlbəcərin və hər bir azərbaycanlı üçün son dərəcə əziz olan digər yaşayış məntəqələrinin qısa müddətdə məskunlaşdırılması dünyaya bir nümunədir. Bu illər ərzində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qaçqın və məcburi köçkün soydaşlarımızın yurd yerlərinə qayıtmalarının sevincini dəfələrlə birlikdə bölüşüblər.

Yurd yerlərimizə böyük köç karvanlarının adətən ölkəmiz və xalqımız üçün mühüm əhəmiyyət daşıyan əlamətdar tarixlər ərəfəsinə təsadüf etməsi də ikiqat sevinc hissi yaradır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2024-cü il 10 may tarixində - Ümummilli Lider Heydər Əliyevin doğum günündə Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər. İlkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla, 88 nəfər köçürülüb.

Böyük Qayıdış proqramı çərçivəsində Laçına köç də əlamətdar tarixdə baş tutub. Belə ki, 2023-cü il mayın 28-də - Müstəqillik Günündə xalqımız ikiqat sevinc hissi yaşayıb. Ölkəmizdə bayramın bayrama qarışması onunla bağlı idi ki, laçınlıların bir qrupu uzun fasilədən sonra məhz qürur duyduğumuz Müstəqillik Günündə doğma torpaqlarına qayıtdılar. Bu, Laçına böyük köçün başlanğıcı idi.

"Heydər Əliyev İli"ndə həmçinin Füzuli şəhərinin məskunlaşdırılmasına start verilib. 2023-cü il avqustun 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib.

Belə xoş ovqat yaradan misalların sayı çoxdur. Hazırda azad ərazilərimizə demək olar ki, hər ay köç karvanları yola salınır. Artıq burada yaşayan, işləyən və təhsil alan insanların sayı 90 mini ötüb ki, bu da Böyük Qayıdış hədəfinə uyğundur.

***Mübariz ABDULLAYEV***

# Uzunmüddətli investisiya reytinqi

## SOCAR beynəlxalq enerji şirkəti kimi qlobal mövqeyini gücləndirir

“Moody’s” beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) uzunmüddətli kredit reytinqini “Baa3” səviyyəsində, proqnozunu isə “stabil” olaraq təsdiq edib. Bu qərar SOCAR-ın maliyyə dayanıqlığının, kredit profilinin və beynəlxalq kapital bazarlarında etibarlı borcalan mövqeyinin növbəti əyani təsdiqdir. Eyni zamanda bu, şirkətin uzunmüddətli maliyyə siyasətinin və intizamının, davamlı inkişaf istiqamətində həyata keçirdiyi tədbirlərin beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyini göstərir. Nəticədə, SOCAR ötən il əldə etdiyi investisiya oluna bilən kredit reytinqini qoruyub saxlayıb.

“Moody’s”in qiymətləndirməsində SOCAR-ın Azərbaycan iqtisadiyyatı və enerji sektorunda strateji rolu, inteqrasiya olunmuş fəaliyyət modeli, sağlam maliyyə göstəriciləri və güclü kredit metrikləri reytinqi dəstəkləyən əsas amillər kimi qeyd edilib. Bildirilir ki, bu qərar qlobal iqtisadiyyatda mövcud qeyri-müəyyənliklər, beynəlxalq maliyyə bazarlarındakı dəyişkənlik, müşahidə olunan geosiyasi gərginliklər fonunda enerji bazarlarında qiymət volatilliyinin davam etdiyi bir dövrdə qəbul olunub. Belə mürəkkəb xarici mühitə baxmayaraq, SOCAR-ın investisiya oluna bilən kredit reytinqinin təsdiqlənməsi şirkətin dayanıqlı maliyyə vəziyyətini, risklərin effektiv idarə olunmasını və uzunmüddətli inkişaf potensialını bir daha nümayiş etdirir. Kredit reytinqinin qorunub saxlanılması beynəlxalq kapital bazarlarında investor etimadının möhkəmlənməsinə, maliyyə institutları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsinə və şirkətin maliyyələşmə imkanlarının genişlənməsinə töhfə verən mühüm amillərdəndir. Bu, eyni zamanda SOCAR-ın beynəlxalq kapital bazarlarında etimad göstərilən tərəfdaş kimi mövqeyini daha da gücləndirir.




### 96 milyard manatı ötən aktivlər

SOCAR son illər ərzində korporativ idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, maliyyə hesabatlılığının və şəffaflığın artırılması, risklərin idarə olunması sisteminin gücləndirilməsi və maliyyə dayanıqlığının qorunması istiqamətlərində ardıcıl tədbirlər həyata keçirir. Bu isə “Moody’s”lə yanaşı, digər beynəlxalq kredit reytinq agentlikləri tərəfindən də investisiya potensialının yüksək səviyyədə qiymətləndirilməsinə səbəb olub. Hazırda şirkət “Fitch Ratings” tərəfindən “BBB” (stabil) və “S&P Global Ratings” tərəfindən “BB” (pozitiv) uzunmüddətli kredit reytinqinə malikdir.

Bütün bunlar onu təsdiqləyir ki, Azərbaycanın milli enerji korporasiyası qlobal investor kimi öz fəaliyyətini genişləndirməkdədir. Ötən il gəlirlərini əvvəlki ildəki 84,6 milyard manatdan 86 milyard 309 milyon manata çatdıran şirkət düzgün və yeni idarəetmə strategiyası nəticəsində aktivlərinin həcmini 96 milyard 852 milyon manata yüksəldib. Şirkət inkişaf prioritetlərinə uyğun olaraq, həm də beynəlxalq aktivlər portfelini genişləndirib, enerji dəyər zəncirində mövqeyini daha da gücləndirib, əməliyyat səmərəliliyinin artırılması və xərclərin optimallaşdırılması istiqamətində görülən tədbirlər nəticəsində fəaliyyətini uğurla həyata keçirib. Nəticədə, investisiya strategiyası üzrə sərmayə qoyuluşları da artıb.

### Aralıq dənizindən Fil Dişi Sahilinədək...

SOCAR-ın strateji əhəmiyyətli investisiya və biznes əməliyyatlarının əhəmiyyətli hissəsi “Bahar” və “Qum-Dəniz” yataqlarında 80 faiz payın alınması, İsrailin Aralıq dənizi hövzəsində yerləşən “Tamar” qaz yatağında 10 faiz effektiv iştirak payının əldə edilməsi, Türkiyədə yeni neft-kimya və enerji layihələrinin inkişafı, rəqəmsal infrastruktur və petrokimya sahələrində strateji investisiyaların həyata keçirilməsi, eləcə də qaz ixracı və beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi ilə bağlı olub.

Azərbaycan Dövlət Neft Şirkəti investisiya strategiyası çərçivəsində xarici ölkələrə investisiya etdiyi kapital portfelindən əhəmiyyətli dividendlər əldə edib. Həmin gəlirlərin böyük hissəsi 50 milyard 582 milyon manatı İsveçrədən qazanılıb. Bu ölkədən əldə edilən gəlirlər ümumi portfel gəlirlərinin 58,6 faizini təşkil edib. SOCAR-ın gəlirlərində əsas yeri tutan ikinci ölkə Türkiyə olub. Qardaş ölkədəki investisiyalardan daxil olan gəlirlərin həcmi 16 milyard 510 milyon manata bərabər olmaqla, illik müqayisədə 6 milyard 860 milyon manat və ya 71,1 faiz artıb. Bu, cəmi portfel qazancının 19,1 faizi deməkdir. Şirkətin Birləşmiş Ərəb Əmirliklərindən gəlirləri 7 milyard 809 milyon manat, Gürcüstandakı gəlirləri 1 milyard 664 milyon manat təşkil edib. SOCAR digər ölkələrdən 2 milyard 857 milyon manat gəlir əldə edib. Bu da, illik müqayisədə 271 milyon manat və ya 10,5 faiz çoxdur.

Dövlət Neft Şirkəti daxili bazarda da mənfəətini çoxaldıb. Ölkə üzrə gəlirlər isə 13 milyard 682 milyon manat olaraq, ümumi gəlirlərin 15,6 faizini təşkil edib. Bu, son bir ildə 5 milyard 476 milyon manat və ya 66,7 faiz artım deməkdir.

Ümumilikdə, SOCAR-ın qlobal arenada strateji xarici investora çevrilməsini göstərən əsas amillərdən biri Avropa və digər bazarlarda güclənən mövqe ilə bağlıdır. Son illərdə Azərbaycanın milli enerji korporasiyası Avropanın strateji bazarlarına birbaşa daxil olaraq İtaliyanın aparıcı enerji şirkətlərindən biri olan “Italiana Petroli” şirkətinin 99,82 faiz səhmlərini satın alıb ki, bu, enerji sektorunda ən mühüm iqtisadi hadisə kimi səciyyələndirilə bilər. 2026-cı ilin may ayında Romada “SOCAR İtaliya” şirkətinin rəsmi təqdimat mərasiminin keçirilməsi dünya enerji şirkətlərinin xüsusi marağı ilə qarşılanıb. Bundan başqa, milli şirkətin maliyyə dövriyyəsinin və gəlirlərinin əhəmiyyətli hissəsinin yerləşdiyi İsveçrə bazarı da son illər fəal investisiya dinamikliyi ilə seçilir və “SOCAR Trading” Avropanın mərkəzində öz rəqabət potensialını nümayiş etdirməkdədir. Balkan regionunda da investisiya hərəkətliliyi artır, Serbiyanın “Srbijagas” şirkəti ilə birgə müəssisə yaradılması və infrastruktur layihələrinin icrası üzrə səhmdar sazişlərinin hazırlanması son mərhələdədir. Yaxın regionda isə ən inkişaf edən bazar Türkiyənin enerji sistemidir. Qardaş ölkənin iqtisadiyyatına 18 milyard dollardan çox sərmayə qoymaqla Türkiyənin ən böyük xarici investoru statusunu daşıyan SOCAR hazırda Türkiyədə makroiqtisadi sabitliyə dəstək olmaq məqsədilə 7 milyard dollarlıq yeni neft-kimya kompleksi investisiyası planlaşdırır.

Hazırda şirkət beynəlxalq hasilat layihələrində iştirakını genişləndirir, Fil Dişi Sahilindəki “Baleine” layihəsi üzrə “PETROCI Holding” ilə əməkdaşlıq fəaliyyətini gücləndirir. Beynəlxalq reytinq agentliyi “S&P” şirkətin illik investisiya qoyuluşlarının daha da artaraq ildə 3 milyard manat səviyyəsinə yüksələcəyini proqnozlaşdırır.

### “Yaşıl enerji” üzrə böyük investisiya planı

Şirkət dünya ölkələrinin müasir enerji gündəliyinə çevrilmiş “yaşıl enerji” sektorunda da aparıcı investor kimi mövqeyini gücləndirir. “SOCAR Green” törəmə şirkəti vasitəsilə indiyə qədər 1,5 milyard dollar dəyərində beynəlxalq və yerli bərpaolunan enerji (günəş və külək) layihələrinin idarə olunması mümkünləşib. 2025-2030-cu illər üzrə investisiya planına əsasən, 6 günəş və 2 külək enerjisi layihəsi daxil edilib. Ümumi planlaşdırılan gücün təxminən 1,7 QVt olması nəzərdə tutulur. Portfelin 85 faizi günəş, 15 faizi isə külək enerjisi layihələrinin payına düşəcək.

“SOCAR Green”in fəaliyyət istiqamətlərindən biri də aşağı karbonlu və dairəvi iqtisadiyyat layihələridir. Bu çərçivədə kənd təsərrüfatı və heyvandarlıq tullantılarının emalı əsasında bioqaz, bərpaolunan elektrik enerjisi və üzvi gübrə istehsal edəcək müəssisənin yaradılması imkanları qiymətləndirilir. Layihənin metan emissiyalarının azaldılmasına və karbon kreditlərinin əldə edilməsinə töhfə verməsi nəzərdə tutulur. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının emalından yaranan tullantıların bioçara çevrilməsi və uzunmüddətli karbon kreditlərinin formalaşdırılması üzrə təşəbbüs üzərində iş aparılır. Geotermal enerjidən istilik və elektrik enerjisi istehsalında istifadə imkanları da araşdırılan istiqamətlər sırasındadır.

***E.CƏFƏRLİ***

# Regionlardan xarici bazarlara...

## İxracın artması bölgələrin iqtisadi imkanlarını genişləndirir

Regionların sosial-iqtisadi inkişafı yalnız yeni yolların, müəssisələrin və infrastruktur layihələrinin həyata keçirilməsi ilə məhdudlaşmır. Mühüm göstəricilərdən biri regionlarda yaşayan kiçik və orta sahibkarların, ailə təsərrüfatlarının istehsal etdiyi məhsulların iqtisadi dəyərə çevrilməsi və həmin malların müxtəlif ölkələrin bazarlarına çıxarılmasıdır. Bu baxımdan Azərbaycan iqtisadiyyatında regionların inkişafı uzun müddətdir əsas prioritetlərdən biri kimi diqqətdə saxlanılır. Həmin istiqamətdə həyata keçirilən tədbirlərin mühüm nəticələrindən biri bölgələrdə istehsal imkanlarının genişlənməsi, kənd təsərrüfatının kommersiya xarakterinin güclənməsi və yerli məhsulların daxili tələbatla yanaşı, xarici bazarlarda payının artmasıdır.

Aqrar məhsulun tarladan xarici bazara qədər keçdiyi yol region iqtisadiyyatının müxtəlif sahələrinə əlavə iqtisadi fəallıq gətirir. Əkinçiliklə yanaşı, məhsulun çeşidlənməsi, qablaşdırılması, saxlanılması, daşınması və ixracı çoxistiqamətli dəyər və məşğulluq zənciri formalaşdırır. Nəticədə həm biznes, həm də bölgə əhalisi bu prosesdən faydalanır. Ona görə də ixrac göstəricilərinin artması regionlarda yalnız istehsalın deyil, kənd təsərrüfatı ətrafında formalaşan biznes ekosisteminin də inkişafını əks etdirir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə hazırlanmışdır**

### 7 ayda 29 milyard dollardan çox ticarət...

2026-cı ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 29 milyard 216 milyon dollar təşkil edib. Bu, ötən ilin eyni dövrünə nisbətən 1,3 faiz çoxdur. Əmtəə dövriyyəsinin 19 milyard 336 milyon dolları ixracın, 9 milyard 881 milyon dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 27 faiz artıb, idxal isə 27,4 faiz azalıb. Son nəticədə xarici ticarətdə 9 milyard 455 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 5,9 dəfə çoxdur.

Bu dövrdə qeyri-neft-qaz ixracı rekord təzələyərək 5 milyard 933 milyon 171 min dollara çatıb. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə (həmin dövrdə göstərici 2 milyard 87 milyon 970 min dollar olub) 3 milyard 845 milyon 201 min dollar çoxdur. Beləliklə, qeyri-neft-qaz məhsullarının ümumi ixracdakı payı 13,7 faizdən 30,7 faizə yüksəlib. Yəni faktiki olaraq ixracın 3-dən biri və ya hər 3 dolların 1 dolları qeyri-neft məhsulllarından ibarətdir.

Qeyri-neft ixracında əsas məhsul qızıl olub, sarı metalın ixrac dəyəri 3,7 milyard dollar təşkil edib. Qızılın çəki həcmi isə 24,52 ton işlənməmiş, yarımişlənmiş və ya toz şəklində olub. Bu məhsul ümumi ixracın 19,2 faizini, qeyri-neft-qaz ixracının isə 62,5 faizini formalaşdırıb. Ötən 7 ayda qızıl nəzərə alınmadan ixracın dəyəri isə 2,5 milyard dollar olub. Bu, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 18,3 faiz artım deməkdir. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 123 milyon dollar, qeyri-yeyinti məhsullarının ixracı isə 26 faiz artaraq 261,8 milyon dollar təşkil edib.

### Aqrar-sənaye məhsullarının ixracı 22,8 faiz artıb

Cari ilin yanvar-iyul aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 2,6 dəfə, pambıq iplik 81,9 faiz, bitki və heyvan mənşəli piylər və yağlar 39,5 faiz, alüminium və ondan hazırlanan məmulatlar 39,4 faiz, pambıq lifi 24,9 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 23,3 faiz, çay 19,5 faiz, meyvə-tərəvəz 16,4 faiz, spirtli və spirtsiz içkilər isə 3 faiz artıb.

Ümumilikdə, aqrar məhsullar üzrə ixrac 22,1 faiz artaraq 673,4 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac 24,8 faiz artaraq 223,1 milyon dollar təşkil edib. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 22,8 faiz artaraq 896,4 milyon dollara bərabər olub.

Qeyd edilən dövrdə əsas aqrar mallardan biri olan kartof ixracını artırıb, bu dövrdə 77,4 min ton kartof ixrac edilib. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, bu həcmdə kartofun dəyəri 29,7 milyon dollar təşkil edib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə həcm baxımından 6,6 min ton (9,2 faiz), dəyər baxımından isə 1,6 milyon dollar (5,5 faiz) çoxdur.



### Regionların iqtisadi potensialı artır

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən iqtisadçı Fuad İbrahimov bildirib ki, Azərbaycanın regionlarında kənd təsərrüfatının inkişafı ölkənin qeyri-neft sektorunun gücləndirilməsi baxımından da əhəmiyyətlidir. Onun sözlərinə görə, aqrar sektorun ixrac imkanlarının genişlənməsi iqtisadi fəallığın paytaxtdan bölgələrə yayılmasına, regionlarda məşğulluğun artmasına və yerli istehsalın stimullaşdırılmasına xidmət edir.

İqtisadçı qeyd edib ki, hesabat dövründə aqrar ixracdan əldə edilən gəlirlər ölkənin ümumi ixracında mühüm yer tutmaqla, regionların inkişafı prizmasından müsbət mənzərə yaradır. “Çünki regional iqtisadiyyat üçün hər bir ixrac məhsulu əlavə gəlir, yeni bazar və istehsalın genişləndirilməsi üçün stimul deməkdir. Yerli istehsalçının məhsulunu yalnız daxili bazarda deyil, xarici bazarda da sata bilməsi onun istehsal həcmini artırmaq, məhsuldarlığı yüksəltmək və daha rəqabətli fəaliyyət göstərmək imkanlarını genişləndirir”.

***Yeganə BAYRAMOVA***

# Həsrət bitdi...

## 33 il öncə işğal olunan Cəbrayıl və Füzuli bu gün yeni inkişaf mərhələsini yaşayır

**30 ilə yaxın bir dövrdə 23 avqust tarixi ağrılı səhifələrdən biri kimi yadda qalmışdı. 33 il öncə həmin gün Füzuli və Cəbrayıl rayonlarının işğalı ilə Ermənistanın Azərbaycan torpaqlarına qarşı həyata keçirdiyi təcavüzün miqyası daha da genişləndi. Hər iki rayon strateji əhəmiyyət kəsb etməklə yanaşı, Azərbaycanın gözəl guşələridir.**

### Ağır işğal günləri...

Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm, dəri və zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektlər var idi. O cümlədən, rayonda aşkar olunmuş preneandertal - Azıxantrop adamının alt çənəsinin sümüklərinin tapıldığı Azıx mağarası mövcud idi. Bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarlayıb.

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşüb, rayon sakinlərindən 733 nəfəri şəhid olub, 192 nəfər girov götürülüb, 1240 nəfər sağlamlığını itirib əlilə çevrilib. Torpaqlarımızın müdafiəsi uğrunda fədakarlıq göstərmiş füzulililərdən 5 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. 1994-cü ilin yanvarında rayonun 21 kəndi və Horadiz qəsəbəsi işğaldan azad olundu.



Azərbaycanın dilbər guşələrindən biri olan Cəbrayıl rayonu da 1993-cü il avqustun 23-də işğal edilib. İşğaldan əvvəl rayonda 72 orta və natamam məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana, 3 daimi, 4 səyyar kino qurğusu fəaliyyət göstərirdi. Zəngin eksponatları olan tarix-diyarşünaslıq muzeyi vardı. Əhaliyə 210 çarpayılıq mərkəzi xəstəxana və ümumi çarpayı sayı 245 yer olan kənd xəstəxanaları, Dağ Tumas, Quycaq, Balyand kəndlərində 11 həkim, 52 feldşer-mama məntəqəsi xidmət göstərirdi. Əsas məşğuliyyət isə əkinçilik və maldarlıq olub.

1990-cı ildən rayon camaatı köməksiz şəkildə erməni silahlıları ilə üz-üzə durmaq məcburiyyətində qalmışdı. İşğal edilmiş digər ərazilər kimi Cəbrayıl rayonu da həmin illərdə böyük köməyə ehtiyac duyurdu. AXC-“Müsavat” cütlüyünün iradəsizliyi və səriştəsizliyi cəbrayıllıları da köməksiz qoymuşdu. Rayon əhalisindən döyüşlərdə 180, atəşkəs dövründə isə 6 nəfər həlak olub. 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişib, 90 nəfərə yaxın isə əsir və itkin düşüb. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın şəxs Qarabağ müharibəsi əlili statusu alıb, 6 nəfər isə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb.

### Lələtəpə qalibiyyəti...

1994-cü ildə Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bu qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də işğaldan azad edilmişdi. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kənd 2016-cı ilin aprelindən sonra ikinci həyatını yaşamağa başladı. Daha dəqiq desək, buna Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində nail olundu. Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsi, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılması üçün əlverişli şərait yarandı. Prezident İlham Əliyev 2017-ci il yanvarın 24-də “Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında” sərəncam imzaladı.



### Abadlaşan Füzuli...

Vətən müharibəsinin 21-ci günü - 2020-ci il oktyabrın 17-si hərb tariximizə Füzuli şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi yazıldı. Dövlətimizin başçısının 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, Füzuli şəhərinin işğaldan azad edildiyi 17 oktyabr tarixi Füzuli şəhəri günü kimi qeyd olunur.

2021-ci ilin yanvarında isə Azərbaycan Prezidenti Füzulidə beynəlxalq hava limanının tikintisi barədə sərəncam verdi. Həmin il yanvarın 14-də təməli atılan Hava Limanının uçuş zolağının inşasının ilin sonuna kimi tamamlanması planlaşdırılırsa da, artıq həmin ilin avqust ayında uçuş-enmə zolağı hazır idi və ilk sınaq təyyarəsini qəbul etmişdi. 2021-ci il oktyabrın 26-da isə hava limanının rəsmi açılışı oldu. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etdilər. Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğanın və dövlət rəsmilərinin olduğu Türkiyənin bir nömrəli təyyarəsi Ankara - Füzuli hava xətti ilə uçuş edərək, birbaşa Füzuli Beynəlxalq Hava Limanına endi.

Artıq rayonda bərpa işləri sürətli şəkildə davam edir. Böyük Qayıdış I Dövlət Proqramına əsasən, 2026-cı ilin sonuna qədər Füzuli rayonunda Füzuli şəhəri və 10 kəndin bərpa olunub təhvil verilməsi nəzərdə tutulub. Şəhər və 10 kənddə ümumilikdə 22 min nəfər qədər əhalinin məskunlaşması planlaşdırılır.

### Cəbrayılın azadlıq günü

2020-ci il Vətən müharibəsində Cəbrayıl rayonu da öz azadlığına qovuşdu. Cəbrayıl düşmən tapdağından xilas edilən ilk şəhər idi. Vətən müharibəsinin ilk günlərindən Cəbrayıl rayonunun kəndləri bir-bir işğaldan azad edilirdi. Dövlət başçısı bu sevincli xəbərləri xalqla bölüşürdü. Oktyabrın ilk günlərində rayonun Böyük Mərcanlı və Nüzgar kəndləri, oktyabrın 3-də isə Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, 4 oktyabr tarixdə isə Cəbrayıl şəhəri ilə yanaşı, rayonun 9 kəndi - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal qüdrətli ordumuz tərəfindən işğaldan azad edildi. Bu gün Cəbrayıl rayonu da özünün yeni quruculuq günlərini yaşayır. Artıq Böyük Qayıdış proqramı çərçivəsində ailələr Cəbrayıla qayıdır.

***P.İSMAYILOV***

# Belçika müstəmləkəçiliyi: Təzminat mübarizəsinin 101 ili

Dünən paytaxtımızda Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə “Belçika müstəmləkəçiliyinin ədalətsizlikləri və təzminat mübarizəsinin 101 ili” mövzusunda beynəlxalq konfrans işinə başlayıb. Tədbirə Belçikanın keçmiş müstəmləkələri olan, eləcə də bu ölkələrdə neokolonial təsirlərin davam etdiyi Konqo Demokratik Respublikası (KDR), Ruanda və Burundi, həmçinin Mərakeş və Cənubi Afrika Respublikasından təmsilçilər, həmçinin Birləşmiş Millətlər Təşkilatının (BMT) nümayəndələri qatılıblar.




Konfransda iştirak edən rəsmi şəxslər arasında Konqo Demokratik Respublikasının ombudsmanı, Konqo Parlamentinin deputatları, Ruandanın Türkiyədəki səfiri və diplomatları yer alıblar.

**Krallığın müstəmləkəçiliyinin tarixdən heç vaxt silinməyəcək qanlı izləri**

Konfrans çərçivəsində Belçika müstəmləkəçiliyinin tarixi, onun keçmiş müstəmləkələrdə yaratdığı siyasi, sosial və iqtisadi nəticələr, müstəmləkəçilik siyasətinin doğurduğu ədalətsizliklər, tarixi həqiqətlərin araşdırılması və zərərçəkmiş xalqların təzminat tələbləri ilə bağlı məsələlərin müzakirəsi aparılıb. Belçika müstəmləkəçiliyinin tarixdən heç vaxt silinməyəcək qanlı izlərinə aid faktlarla tanış olduqda insan qeyri-iradi olaraq heyrətə gəlir. Dünyada böyük coğrafi kəşflərlə başlayan müstəmləkəçilik tarixində Fransa ilə yanaşı, Belçika da öz nəzarəti altına aldığı ərazilərin aborigen sakinlərinə qarşı xüsusi amansızlığı ilə fərqlənir. Belə baxanda hər iki ölkə Avropanın elan olunmamış paytaxtları sayılır. Bu ölkələrdən hər zaman dünyaya demokratiya, azadlıq mesajları ünvanlanır. Bəs onların özləri necə, bəyan etdikləri prinsiplərə sadiqdirlərmi? Müstəmləkə əsarəti altında inləyən xalqların taleyi, gündəlik yaşayışı göz önündə əks mənzərə formalaşdırır. Aydın şəkildə görünür ki, özlərini Avropanın seçilmiş ölkələri kimi təqdim etməyə çalışan Fransa və Belçika müstəmləkə əsarətində saxladıqları ərazilərə münasibətdə bu prinsiplərdən çox-çox uzaqda dayanırlar.

Belçika Krallığının müstəmləkəçiliyi əsasən də Konqo Demokratik Respublikası, Ruanda və Burundidə təbii resursların istismarı, zorakılıq və irqi ayrı-seçkiliklə müşayiət edilib. Qəribə burasıdır ki, bu ölkə müstəmləkəçilik siyasətindən XXI əsrdə də əl çəkmir və onu yeni formalarda, lakin daha amansız mahiyyətlə davam etdirməyə çalışır.

Qeyd etdiyimiz kimi, Belçikanın müstəmləkələrindən biri Konqo Demokratik Respublikası olub. Krallığın qəddarlığı ilə fərqlənən müstəmləkəçi lideri II Leopold 1885-ci ildən 1908-ci ilədək Konqonu şəxsi mülkü kimi idarə edib.

O, Beynəlxalq Afrika Təşkilatı (International African Association) adlı qurum yaradıb və buraya “mədəniyyət” gətirmək ideyasını irəli sürüb ki, bunun da əsl məqsədi yerli əhalini istismar etmək olub. Həmin dövrdə Konqoda baş verən insan haqlarının pozuntuları və qətliamlar tarixdə ən dəhşətli müstəmləkəçilik nümunələrindən biri kimi qeyd olunur. Ehtimallara görə, Leopoldun hakimiyyəti dövründə təxminən 10 milyon afrikalı öldürülüb. Lakin tarixçilər hələ də dəqiq rəqəmlər barədə mübahisə edirlər. 44 il Belçikaya rəhbərlik edən Leopoldun rejimi Afrika regionunun zəngin resurslarını mənimsəyib. Kişilər, qadınlar və uşaqlar ağlasığmaz vəhşiliklərə məruz qalıblar - milyonlarla insan tiranlıq altında həlak olub. Nəhayət, Afrikadakı genişmiqyaslı insan hüquqları pozuntuları barədə məlumatlar beynəlxalq ictimaiyyətə çatıb. Yalnız beynəlxalq etirazlardan sonra kral 1909-cu ildə, ölümündən bir il əvvəl Konqodan imtina etmək məcburiyyətində qalıb. Dünyanın sonuncu insan zooparkı da burada mövcud olub. İnsan zooparkı 1897-ci ildə kral II Leopold tərəfindən yaradılıb və sonradan Afrika Muzeyinə çevrilib. Süni kənd yaradan təşkilatçılar burada insanları təhqir edir, onları aşağılayırdılar.

Belçika Konqo ilə yanaşı, Ruanda və Burundidə də “parçala və hökm et” siyasəti tətbiq edərək etnik gərginlikləri dərinləşdirib ki, bu da gələcəkdə baş verən soyqırımların əsasını təşkil edib. Məsələn, bəşər tarixinin ən qanlı soyqırımı 1994-cü ildə Ruandada baş verib və bu qətliamda Belçikanın da məsuliyyəti var. Radikal hutular tərəfindən tutsilərin kütləvi şəkildə öldürülməsi hələ də yaddaşlardan silinməyib. Bu hadisələr müstəmləkə dövründə yaradılan etnik qarşıdurmanın nəticəsi olaraq meydana çıxıb.




**Belçika çoxsaylı müstəmləkə cinayətlərinə görə məsuliyyət daşıyır və təzminatlar ödəməlidir**

Yerli xalqların və ayrı-ayrı beynəlxalq təşkilatların mövqeyi ondan ibarətdir ki, Belçika çoxsaylı müstəmləkə cinayətlərinə görə məsuliyyət daşıyır və təzminatlar ödəməlidir. “Belçikanın Mərkəzi Afrikadakı müstəmləkəçilik siyasətinin başa çatmasından uzun illər keçməsinə baxmayaraq, Konqo Demokratik Respublikası, Ruanda və Burundi hələ də tarixi ədalətin bərpası istiqamətində bu ölkədən konkret addımlar gözləyir”. Bu fikirləri jurnalistlərə açıqlamasında Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib.

O qeyd edib ki, müstəmləkəçilik dövründə törədilmiş cinayətlərin nəticələrinin aradan qaldırılması yalnız siyasi bəyanatlarla məhdudlaşmamalı, məsələ konkret hüquqi mexanizmlər və təzminat öhdəlikləri çərçivəsində həllini tapmalıdır.

“Belçika dövlət səviyyəsində Konqo Demokratik Respublikasından, Ruandadan və Burundidən üzr istəməlidir. Bundan sonra müstəmləkəçilik dövründə həmin ölkələrə vurulmuş zərərə uyğun maliyyə təzminatlarının həcmi müəyyən edilməli və bu vəsait mərhələli şəkildə ödənilməlidir”, - deyə A.Abbasov diqqətə çatdırıb.

“Müstəmləkəçilik yalnız ərazilərin işğalı ilə məhdudlaşmayıb, eyni zamanda siyasi hakimiyyətə, sosial kimliklərə, iqtisadi münasibətlərə və cəmiyyətdə ayrı-seçkilik mexanizmlərinə təsir edən institutlar formalaşdırıb. Bu strukturlar formal müstəmləkəçilik başa çatdıqdan onilliklər sonra belə bir sıra keçmiş müstəmləkələrdə öz təsirini saxlayır”. Bu fikirləri isə iqamətgahı Ankarada olmaqla Ruanda Respublikasının Türkiyə, Azərbaycan, Qazaxıstan və Livandakı səfiri Çarlz Kayonqa beynəlxalq konfransda çıxışı zamanı səsləndirib.

Səfir vurğulayıb ki, müstəmləkəçiliklə bağlı siyasi təcrübənin öyrənilməsi uzunmüddətli nəticələri anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. O qeyd edib ki, müstəmləkəçilik Ruandanın sonrakı siyasi inkişafını mexaniki şəkildə müəyyənləşdirməyib, lakin sonrakı siyasi aktorların fəaliyyət göstərdiyi institusional və sosial çərçivənin formalaşmasına təsir göstərib.

“Bu strukturların mahiyyətini və onların yaratdığı uzunmüddətli nəticələri aydın şəkildə ortaya qoymaq vacibdir. Yalnız bundan sonra tarixi məsuliyyət, ədalətin bərpası və reparasiya məsələləri ətrafında mənalı və əsaslandırılmış müzakirə aparmaq mümkündür”, - deyə Ç.Kayonqa bildirib.

***Mübariz FEYİZLİ***

# Donald Trampla Kim Çen Inın görüşü: Şimali Koreya əvvəlki dövlət deyil



Dünyanın diqqəti yenidən Koreya yarımadasına yönəlib. Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Tramp avqustun 19-da Şimali Koreya lideri Kim Çen Inla bu ilin sonuna qədər görüşmək niyyətində olduğunu açıqlayıb. Bu xəbər ilk baxışda sadəcə iki liderin yenidən görüşmək planı kimi görünə bilər, amma məsələnin arxasında Şərqi Asiyanın təhlükəsizliyindən tutmuş, nüvə silahlarının yayılmasına, ABŞ-la Çin arasında rəqabətdən Rusiya ilə Şimali Koreyanın yaxınlaşmasına qədər çox ciddi problemlər dayanır. Üstəlik, Trampın bu açıqlaması ABŞ və Cənubi Koreyanın birgə hərbi təlimlərinin miqyasının azaldılmasından sonra gəlib, bu da Vaşinqtonun Pxenyanla münasibətlərdə yeni səhifə açmağa çalışdığını göstərir. Görüşün dəqiq tarixi və yeri hələ rəsmi şəkildə açıqlanmayıb, lakin payız aylarında, xüsusilə noyabrda Çinin Şençjen şəhərində keçirilməsi planlaşdırılan Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı forumu çərçivəsində belə bir görüşün mümkünlüyü barədə müzakirələr aparılır.

Fəqət bu dəfə Trampın qarşısında 2018-ci ildə Sinqapurda görüşdüyü Kim Çen In yoxdur. Aradan səkkiz il keçib, bu müddətdə Şimali Koreya nüvə silahı və uzaqmənzilli raket proqramlarını inkişaf etdirib, Rusiya ilə hərbi və siyasi əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirib, ABŞ və Cənubi Koreyanın hərbi əməkdaşlığını öz təhlükəsizliyinə əsas təhdid kimi qələmə verməyə davam edib. Ona görə də qarşıdakı görüşü 2018-ci ildə başlayan diplomatik prosesin sadə davamı saymaq böyük səhv olardı. Şərtlər dəyişib, Kim Çen Inın əlindəki imkanlar dəyişib və ən əsası, onun əlindəki nüvə silahı artıq çoxdandır gələcəkdə qazanılası imkan deyil, mövcud hərbi-siyasi reallıqdır.

**Sinqapur görüşü dünyaya böyük ümid vermişdi...**

12 iyun 2018-ci ildə ABŞ prezidenti Donald Trampla Şimali Koreya lideri Kim Çen Inın Sinqapurdakı görüşü dünya siyasətində tarixi hadisə kimi qiymətləndirildi. Sinqapur Cənub-Şərqi Asiyada yerləşən kiçik, lakin iqtisadi və maliyyə baxımından çox mühüm şəhər-dövlətdir, həmin gün onun adı dünyanın diqqət mərkəzindəydi: tarixdə ilk dəfə Amerika Birləşmiş Ştatlarının fəaliyyətdə olan prezidenti Şimali Koreyanın lideri ilə birbaşa görüşürdü.

Halbuki bundan bir neçə ay əvvəl vəziyyət tamam başqaydı: Vaşinqtonla Pxenyan arasında söz savaşı gedirdi, Şimali Koreya nüvə və raket sınaqları keçirirdi, Tramp isə Pxenyanı ciddi şəkildə təhdid edirdi. Kim Çen In da ABŞ-a qarşı sərt bəyanatlar verir, bununla yanaşı ölkəsinin hərbi imkanlarını nümayiş etdirirdi. Bir sözlə, dünya Koreya yarımadasında müharibə ehtimalından narahat idi. Sonra diplomatiya başlandı. Sinqapur görüşünün ardınca ABŞ və Şimali Koreya yeni münasibətlər qurmaq, Koreya yarımadasında davamlı sülh yaratmaq və yarımadanın nüvəsizləşdirilməsi istiqamətində işləmək barədə razılığa gəldi. Həmin vaxt bir çoxları düşünürdü ki, bəlkə də Koreya yarımadasında onilliklər boyu davam edən qarşıdurmanın sonu yaxınlaşır. Amma siyasi bəyanatla real razılaşma arasında çox böyük məsafə var.

Sinqapur sənədində əsas məqsədlər müəyyənləşdirilsə də, bu hədəflərə necə çatılacağı tam aydın deyildi. Şimali Koreyanın nüvə silahlarından hansı mərhələlərlə imtina edəcəyi, nüvə proqramına beynəlxalq nəzarətin necə həyata keçiriləcəyi, ABŞ-ın hansı iqtisadi sanksiyaları hansı şərtlərlə aradan qaldıracağı və Pxenyanın nüvə silahından imtinasından sonra öz təhlükəsizliyinə hansı təminatı alacağı kimi məsələlər açıq qalırdı. Başqa sözlə, tərəflər getmək istədikləri istiqaməti göstərmişdilər, amma həmin istiqamətdə hansı yolla hərəkət edəcəkləri barədə konkret razılığa gələ bilməmişdilər.

**Hanoyda dostluq söhbəti bitdi**

27-28 fevral 2019-cu ildə Tramp və Kim Çen In ikinci dəfə - bu dəfə Vyetnamın paytaxtı Hanoy şəhərində görüşdülər. Vyetnam Cənub-Şərqi Asiyada yerləşən və ABŞ-la keçmişdə ağır müharibə aparmış ölkədir. Buna görə Hanoy görüşünün özü də müəyyən simvolik məna daşıyırdı. Lakin Sinqapurdan fərqli olaraq burada böyük siyasi jestlər yetmirdi, tərəflər konkret məsələlər üzrə razılaşmalıydılar. Şimali Koreya iqtisadi sanksiyaların əhəmiyyətli hissəsinin götürülməsini istəyirdi. Sanksiya deyəndə bir dövlətə və ya hökumətə siyasi-iqtisadi təzyiq göstərmək məqsədilə tətbiq edilən məhdudiyyətlər nəzərdə tutulur. ABŞ isə Pxenyanın nüvə proqramından daha ciddi şəkildə geri çəkilməsini tələb edirdi, amma tərəflər hansı güzəştin qarşılığında hansı güzəştə gedəcəkləri barədə razılığa gələ bilmədilər. Nəticədə, Hanoy görüşü heç bir yekun saziş imzalanmadan başa çatdı.

Bu hadisə mühüm bir həqiqəti ortaya qoydu: iki liderin şəxsi münasibətlərinin yaxşı olması dövlətlər arasında mürəkkəb problemlərin avtomatik həll olunması demək deyil. Tramp Kimlə yaxşı münasibət qura bilərdi, Kim də Trampın danışıqlar üslubunu qəbul edə bilərdi, amma masanın üzərinə nüvə silahı, iqtisadi sanksiyalar, hərbi təhlükəsizlik, Cənubi Koreyanın maraqları və ABŞ-ın beynəlxalq öhdəlikləri qoyulmuşdu. Bunların heç biri sadəcə dostluq söhbəti ilə həll olunmur.

**Panmuncom görüşü tarixi görüntü yaratdı, amma nəticə dəyişmədi**

30 iyun 2019-cu ildə Tramp bu dəfə Koreya yarımadasının ortasında yerləşən və Şimali Koreya ilə Cənubi Koreyanı ayıran sərhəd zonasına getdi. Bu ərazi Koreya dilində Panmuncom adı ilə tanınır və iki Koreya arasında hərbi qarşıdurmanın simvolik məkanlarından biridir. Burada Kim Çen Inla görüşən Tramp hətta Şimali Koreya ərazisinə bir neçə addım da atdı. Tarixi görüntülər dünyanın bütün televiziya kanallarıyla yayıldı. Lakin diplomatiyada görüntü ilə nəticə arasında böyük fərq var: Şimali Koreya nüvə proqramından imtina etmədi, ABŞ-ın da əsas sanksiya siyasəti dəyişmədi və Koreya müharibəsini hüquqi baxımdan tam başa çatdıracaq sülh müqaviləsi imzalanmadı. Bir müddət sonra ABŞ-la Şimali Koreya arasında yüksək səviyyəli danışıqlar faktiki olaraq dayandırıldı. İndi Tramp həmin diplomatik prosesi yenidən başlatmaq istəyir. Amma bu dəfə qarşısındakı Kim Çen In əvvəlki Kim deyil.

**Şimali Koreyanın nə qədər nüvə silahı var?**

Şimali Koreya nüvə arsenalının dəqiq sayını açıq bəyan etmir. Buna görə dünyadakı rəqəmlər kəşfiyyat məlumatları, peyk görüntüləri, elmi hesablamalar və müstəqil araşdırmalar əsasında hazırlanır. Məsələn, SIPRI adıyla tanınan Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu İsveçin paytaxtında yerləşən müstəqil elmi-tədqiqat institutudur. Bu institut dünya üzrə silahlanma, hərbi xərclər, silah ticarəti, münaqişələr və nüvə silahları ilə bağlı araşdırmalar aparır, hər il dünya silahlanmasının vəziyyətini əks etdirən hesabatlar hazırlayır. SIPRI-nin 2026-cı il qiymətləndirməsinə əsasən, Şimali Koreyanın təxminən 60 nüvə başlığı var. ABŞ prezidenti Donald Tramp isə avqustun 19-da Şimali Koreyanın 57 çox güclü nüvə silahına malik olduğunu bildirib. Bu, ABŞ hökumətinin açıq təsdiqlədiyi rəsmi arsenal siyahısı deyil, Trampın açıqladığı qiymətləndirmədir. Cənubi Koreyanın müdafiə naziri Ahn Gyu-bek isə avqustun 20-də Şimali Koreyanın nüvə arsenalının 80-120 başlıq arasında ola biləcəyini söyləyib və bunun müxtəlif özəl tədqiqatların hesablamalarına əsaslandığını, Cənubi Koreya ordusunun dəqiq rəqəmi müstəqil şəkildə təsdiqləyə bilmədiyini qeyd edib.

Rəqəmlərin 57, 60 və ya 120 olması arasında böyük fərq var, amma burada əsas məsələ konkret rəqəmdən daha vacibdir. Müxtəlif mənbələrin hesablamaları arasında fərq olsa da, onların hamısı eyni reallığa işarə edir: Şimali Koreya nüvə silahına malikdir və onun nüvə imkanları 2018-ci ilə nisbətən xeyli böyükdür. Bu isə qarşıdakı danışıqların mahiyyətini tamam dəyişir.

**Kim Çen In nüvə silahından niyə əl çəksin?**

Kim Çen In üçün nüvə silahı sadəcə bir neçə bomba və ya raketdən ibarət hərbi arsenal deyil. Şimali Koreya rəhbərliyi bu silahı ölkənin xarici müdaxilədən qorunmasının və mövcud siyasi hakimiyyətin saxlanmasının əsas təminatlarından sayır. Pxenyanın məntiqi belədir: nüvə silahı olan ölkəyə hərbi müdaxilə daha böyük risk yaradır, buna görə də həmin ölkənin rejimini zorla dəyişmək daha çətin olur. Bu səbəbdən Trampın qarşısında duran əsas məsələ "Kim Çen Inı nüvə silahından necə daşındıraq?" sualından daha mürəkkəbdir. Əsas məsələ ondan ibarətdir ki, Kim nüvə proqramını məhdudlaşdırmaq və ya dondurmaq müqabilində ABŞ-dan nə istəyəcək və Vaşinqton bu tələblərin hansı qismini qəbul etməyə hazır olacaq. Burada iqtisadi sanksiyaların yumşaldılması, Şimali Koreyanın iqtisadi fəaliyyəti üçün imkanların artırılması, diplomatik əlaqələrin normallaşdırılması, ABŞ-la Cənubi Koreyanın hərbi təlimlərinin azaldılması və Pxenyanın təhlükəsizliyinə müəyyən siyasi təminatların verilməsi kimi məsələlər gündəmə gələ bilər.

ABŞ üçün də vəziyyət asan deyil: Vaşinqton Şimali Koreya ilə danışıqlarda ciddi güzəştlərə gedərsə, Cənubi Koreya da, Yaponiya da öz təhlükəsizliyinin zəiflədiyi qənaətinə gələ bilər.

**Dünyanı qorxudan əsas təhlükə**

Əslində, dünyanı ən çox narahat edən məsələ Trampın Kimlə görüşməsi deyil, əksinə, dost olmayan dövlətlərin liderlərinin danışması hər zaman müharibə təhlükəsindən daha yaxşıdır. Əsas təhlükə nüvə silahının beynəlxalq siyasətdə getdikcə daha böyük siyasi üstünlük vasitəsinə çevrilməsidir. Bir dövlət nüvə silahı yaradır, beynəlxalq təzyiqlərə baxmayaraq həmin silahı saxlayır, sonra böyük dövlətlər onunla məhz bu nüvə imkanlarına görə danışıqlar aparmağa başlayırsa, başqa dövlətlərin rəhbərləri də bundan özləri üçün nəticə çıxara bilərlər. Düşünə bilərlər ki, nüvə silahına sahib olmaq beynəlxalq təzyiqdən qorunmağın və böyük dövlətləri danışıqlar masasına gətirməyin ən etibarlı yollarından biridir. Bax, dünyanı əslində qorxudan budur: belə bir düşüncə populyarlaşsa, nüvə silahlarının yayılmasının qarşısını almaq daha da çətinləşə bilər.

Cənubi Koreya ilə Yaponiya məsələnin ən həssas nöqtəsində dayanır. Hər iki ölkə iqtisadi və texnoloji baxımdan dünyanın ən güclü dövlətləri sırasındadır, lakin nüvə silahına malik deyil və öz təhlükəsizliyini böyük ölçüdə ABŞ-ın hərbi imkanlarına bağlayır. Şimali Koreyanın nüvə arsenalının böyüməsi və ABŞ-ın Pxenyanla münasibətlərdə güzəştlərə getməsi Seul və Tokioda təhlükəsizlik siyasətinə yenidən baxmaq barədə müzakirələri gücləndirə bilər. Belə bir proses başlansa, məsələ artıq Şimali Koreya problemi olmaqdan çıxıb, Asiyada nüvə silahının yayılması probleminə çevriləcək.

**ABŞ-la Cənubi Koreyanın hərbi təlimləri niyə azaldılır?**

Trampın Kim Çen Inla yenidən görüşmək niyyətindən əvvəl ABŞ və Cənubi Koreyanın birgə hərbi təlimlərinin miqyasının azaldılması da xüsusi diqqət çəkir. Bu təlimlər iki ölkənin hərbi qüvvələrinin Şimali Koreyanın mümkün hücumuna qarşı birgə fəaliyyət göstərmək qabiliyyətini yoxlamaq və artırmaq məqsədi daşıyır. 2026-cı ildə keçirilmiş əsas təlimlərdən biri Ulchi Freedom Shield adlanır. Bu, ABŞ və Cənubi Koreya ordularının birlikdə keçirdiyi böyük illik hərbi hazırlıq proqramıdır. Tramp həmin təlimlərin miqyasının və müddətinin azaldılmasına göstəriş verib. Təlimlərin əvvəlcədən planlaşdırılan 11 gün əvəzinə 5 gün davam etdirilməsi və bəzi praktiki sahə təlimlərinin azaldılması qərarı qəbul olunub. Tramp bu qərarı həm ABŞ üçün maliyyə yükü, həm də Şimali Koreya ilə münasibətləri yumşaltmaq istəyi ilə əlaqələndirib.

Lakin Seul üçün məsələ yalnız maliyyə məsələsi deyil. Cənubi Koreya hesab edir ki, bu təlimlər ABŞ-ın onun təhlükəsizliyinə verdiyi zəmanətin mühüm praktiki hissəsidir. Ona görə Vaşinqtonun Pxenyana diplomatik jest üçün hərbi təlimləri azaltması Seulda məmnunluq yaratmır.

**Kim Yo Çjonun mövqeyi nə deməkdir?**

Şimali Koreya tərəfinin reaksiyasında Kim Çen Inın bacısı Kim Yo Çjonun mövqeyi xüsusi əhəmiyyət daşıyır. Kim Yo Çjon Şimali Koreyanın hakim Koreya Əmək Partiyasının yüksək vəzifəli rəhbərlərindən biridir, özü də xüsusilə ABŞ və Cənubi Koreya ilə münasibətlər barədə Pxenyanın ən sərt siyasi açıqlamalarını verən şəxslərdən biri kimi tanınır. O, ABŞ və Cənubi Koreya birgə hərbi təlimlərinin azaldılmasını ciddi güzəşt kimi qəbul etməyib, təlimin miqyasının aşağı salınmasının onun xarakterini dəyişmədiyini bildirib. Bununla yanaşı, Kim Yo Çjon Donald Trampla qardaşı Kim Çen In arasında şəxsi münasibətlərin yaxşı olduğunu etiraf etsə də, son vaxtlar iki liderin rəsmi əlaqələrindən xəbərdar olmadığını bildirib.

Bu açıqlamanın arxasındakı siyasi məntiq aydın görünür: Pxenyan Trampın "Kimlə münasibətlərimiz yaxşıdır" sözünü ABŞ-ın dövlət siyasətinin dəyişməsi kimi qəbul etmir. Başqa sözlə, Şimali Koreya üçün Trampın Kim Çen Inla şəxsi münasibətləri bir məsələdir, Amerikanın Şimali Koreyaya qarşı uzunmüddətli dövlət siyasəti isə tamam başqa məsələdir. Kim Yo Çjonun mövqeyinin güclənməsi də təsadüfi deyil. O, 2026-cı ilin fevralında Koreya Əmək Partiyasının rəhbər strukturunda daha yüksək vəzifəyə yüksəlib, bununla da Kim ailəsinin hakimiyyət sistemində siyasi çəkisinin daha da artdığı görünür.

**Şimali Koreya ilə Rusiya niyə yaxınlaşıb?**

Koreya məsələsinin ən mühüm yeni tərəflərindən biri son illər Moskvanın Pxenyanla əlaqələrinin daha da möhkəmlənməsidir. 2024-cü ilin 19 iyun tarixində Rusiya prezidenti Vladimir Putin Şimali Koreyaya səfərə gedib və Kim Çen Inla Hərtərəfli Strateji Tərəfdaşlıq Müqaviləsi imzalayıb. Bu müqavilə iki ölkə arasındakı siyasi, iqtisadi və təhlükəsizlik əlaqələrini yeni səviyyəyə qaldırıb. Sənəddə tərəflərdən birinə qarşı silahlı təcavüz nəticəsində müharibə vəziyyəti yaranarsa, digər tərəfin yardım göstərməsi nəzərdə tutulur. Bu yaxınlaşmanın Ukrayna müharibəsi ilə birbaşa əlaqəsi var. Şimali Koreyanın Rusiyaya müxtəlif hərbi vasitələrlə dəstək verdiyi barədə məlumatlar Cənubi Koreya, Ukrayna və digər ölkələr tərəfindən açıqlanıb. Şimali Koreya isə Rusiya ilə münasibətlərini öz təhlükəsizlik maraqları baxımından əsaslandırır. Bu vəziyyət Kim Çen Inın Vaşinqton qarşısında əlini gücləndirir, çünki Pxenyan artıq yalnız Çinlə münasibətlərinə arxalanan ölkə deyil; Rusiya ilə də strateji əlaqələri olan Şimali Koreya ABŞ-la danışıqlarda alternativ tərəfdaşa malik olduğunu nümayiş etdirə bilir.

**Çin prosesləri diqqətlə izləyir**

Pekin də bu prosesdən kənarda qala bilməz. Çin Xalq Respublikası Şimali Koreyanın ən mühüm qonşularından biridir, odur ki, Koreya yarımadasında hər hansı böyük münaqişə birbaşa Çinin təhlükəsizlik və iqtisadi maraqlarına təsir göstərə bilər. Pekin bir tərəfdən Şimali Koreyanın nüvə arsenalının daha da böyüməsini istəmir, çünki bu, regionda sabitliyi zəiflədir və ABŞ-ın hərbi mövcudluğunun gücləndirilməsi üçün əlavə əsas yaradır; digər tərəfdən, Çin Şimali Koreyanın tamamilə ABŞ-ın təsir dairəsinə keçməsini də istəmir. Bu səbəbdən Pekinin ən çox arzuladığı vəziyyət böyük ehtimalla Koreya yarımadasında müharibənin olmaması, ABŞ-la Şimali Koreya arasında dialoqun davam etməsi və regionda qüvvələr balansının kəskin dəyişməməsidir.

Üstəlik, Çin xarici işlər naziri Vanq İ avqustun 19-da Cənubi Koreyaya səfərə gedib və Seulda Koreya yarımadasının təhlükəsizliyi məsələsini müzakirə edib. Çin tərəfi ABŞ-ın Şimali Koreyaya qarşı "düşmən siyasətini" dəyişməli olduğunu bildirərək dialoqun bərpasına çağırıb. Bu da göstərir ki, Tramp-Kim görüşü baş tutsa, onun nəticəsini yalnız Vaşinqton və Pxenyan müəyyən etməyəcək.

**Qarşıdakı görüşdə sövdələşmə nə olacaq?**

Çox güman, Kim Çen In nüvə proqramını məhdudlaşdırmaq üçün ABŞ-dan ciddi qarşılıq istəyəcək, Tramp isə bunun müqabilində Şimali Koreyanın nüvə və raket proqramı ilə bağlı yoxlana bilən real öhdəlik götürməsini tələb edəcək. Əgər Pxenyan nüvə materialının istehsalını dayandırmağa razılaşsa, bunun qarşılığında iqtisadi sanksiyaların bir hissəsinin yumşaldılmasını tələb edə bilər. Yox, əgər raket sınaqlarını məhdudlaşdırarsa, daha böyük siyasi və təhlükəsizlik təminatları istəyə bilər. Pxenyan bir az da irəli gedib nüvə obyektlərini beynəlxalq yoxlamaya açsa, ABŞ-dan uzunmüddətli təhlükəsizlik zəmanəti də tələb edə bilər.

Burada "beynəlxalq yoxlama" ifadəsinin də mənasını aydınlaşdırmaq lazımdır. Söhbət nüvə proqramının həqiqətən dayandırılıb-dayandırılmadığını müəyyənləşdirmək üçün xarici mütəxəssislərin və beynəlxalq təşkilatların obyektlərə giriş ixtiyarı əldə etməsindən gedir, çünki sadəcə "biz nüvə proqramını dayandırdıq" demək kifayət deyil, qarşı tərəf bunun həqiqətən baş verdiyini yoxlamaq istəyəcək. Məhz bu səbəbdən gələcək danışıqlarda ən çətin məsələ tərəflərin bir-birinin etimadını qazanması olacaq.

**Bu dəfə dünya şəkillərə yox, nəticəyə baxacaq**

Tramp və Kim yenidən görüşüb, əl sıxıb, xoş sözlər deyib dünyaya sülh mesajı verə bilərlər. Lakin 2018-19-cu illərin təcrübəsini dadmış dünya artıq tarixi görüntülərlə kifayətlənməyəcək. 2018-ci ildə böyük ümidlər yarandı, 2019-cu ildə danışıqların nə qədər çətin olduğu ortaya çıxdı, sonrakı illərdə isə Şimali Koreyanın nüvə və raket arsenalı daha da inkişaf etdi. Üstəlik, diplomatik jestlərin fonunda Pxenyanın hərbi fəaliyyəti hələ də davam edir. Avqustun 20-də Cənubi Koreya ordusu Şimali Koreyanın təxminən 10 qısamənzilli ballistik raket buraxdığını bildirib. Ballistik raket müəyyən trayektoriya üzrə yüksək sürətlə hərəkət edən, uzaq hədəfə zərbə vurmaq üçün istifadə olunan raket növüdür. Cənubi Koreya bu hadisədən sonra ABŞ və Yaponiya ilə birlikdə müşahidəni gücləndirib.

Bu hadisə çox şey deyir. Bir tərəfdə Tramp Kim Çen Inla görüşmək istəyir, digər tərəfdə Şimali Koreya əvvəlkitək hərbi imkanlarını nümayiş etdirir. Bu, Pxenyanın diplomatiya ilə təzyiqi paralel yürütmək siyasətindən əl çəkmədiyini göstərir.

**Əsl məsələ Trampın Kimlə görüşməsi deyil...**

Qarşıdakı görüşün ən böyük əhəmiyyəti iki liderin yenidən bir masa arxasında oturması olmayacaq. Əsas məsələ ABŞ-ın nüvə silahına malik Şimali Koreya ilə hansı yeni münasibət modelini quracağıdır. Əgər Vaşinqton yenə yalnız "tam nüvəsizləşmə" istəyib qarşılığında konkret və mərhələli güzəştlər təklif etməsə, danışıqların yenidən dalana dirənməsi mümkündür. Yox, əgər ABŞ Şimali Koreyanın nüvə arsenalını faktiki olaraq qəbul edib onunla yalnız silahların artırılmaması barədə razılaşsa, bu dəfə də başqa problem yaranacaq, Cənubi Koreya və Yaponiya öz təhlükəsizliyinin gələcəyi barədə ciddi suallar verməyə başlayacaq.

Ona görə ən real yol, bizcə, iki tərəfin bir-birindən mərhələli şəkildə güzəşt almasıdır: Şimali Koreya nüvə və raket proqramının müəyyən hissəsini dondurur, beynəlxalq yoxlamaya müəyyən imkan verir və yeni nüvə sınaqlarından imtina edir; ABŞ isə bunun qarşılığında mərhələli iqtisadi və siyasi güzəştlərə gedir, təhlükəsizlik təminatlarını genişləndirir və hərbi təlimlərin müəyyən hissəsini məhdudlaşdırır. Bu, Şimali Koreyanın tam nüvəsizləşdirilməsi olmayacaq, amma nüvə təhlükəsinin daha da böyüməsinin qarşısını almaq baxımından real nəticə verə bilər. Əks halda yenə böyük bəyanatlar eşidəcəyik, tarixi şəkillər görəcəyik, dünya bir neçə gün ümidlənəcək... və bir müddət sonra Şimali Koreyanın növbəti raket sınağını müzakirə etməyə başlayacağıq. Çünki bu gün qarşıda duran başlıca sual "Tramp Kim Çen Inla görüşəcəkmi?" deyil, əsas sual budur: nüvə silahının dövlətlərə beynəlxalq siyasətdə əlavə üstünlük qazandırdığı təhlükəli tendensiyanın qarşısını almaq mümkün olacaqmı?

Bu sualın cavabı mənfi olarsa, Şimali Koreya məsələsi Koreya yarımadasının problemi olaraq qalmayacaq. O zaman bütün dünya üçün daha böyük problem ortaya çıxacaq: nüvə silahının təhlükəsizlik zəmanəti kimi qəbul edildiyi və getdikcə daha çox dövlətin özünü qorumaq üçün həmin silaha yiyələnməyə can atdığı yeni beynəlxalq sistem. Məhz buna görə qarşıdakı Tramp-Kim görüşünün nəticəsi Vaşinqtonla Pxenyan arasındakı münasibətlərdən qat-qat böyük



*Kəramət QƏNBƏROV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Şənbə üçün nəzm









*Əyyub Məmmədov*

Məzarlar da zamanla
Dostlaşıb tanış olur
Bəzi daşlar orda da
Fəhləyə məmur olur

Məzar var ki, başında
Bir abidə ucalır
Məzar var ki, başında
Adi bir daş dayanır

Məzar var il boyu
Həmişə yada düşür
Məzar var tarix boyu
Heç ora yolun düşmür

Məzar var yanı hasar
Bir qoruğa bənzəyir
Məzar var kol-kos basır
Kim olduğu bilinmir

Adama elə gəlir
O daşlar da danışır
Ona yaxın məzarla
Öz dərdini paylaşır

***

Bir çiçək idin ki, ömürlük təzə
Araz yadigarı qalmışdın bizə
Qəlbində nə böyük gözəl arzular
Heyf xəyalların düşdü dənizə

Səndən bizə qalan dəyərli miras
Təmiz duyğuların, hisslərin oldu
Yazdığın alovlu, odlu şeirlər
Bir də kitab dolu xatirən oldu

Gözəl nümunədir həyat yolların
Vaxtsız yol çıxdı ömür karvanın
Bilməzdik Rəhilə ziyarətinə
Şahidlik edəcək nurlu məzarın

Nə xoşbəxt insansan sevənin çoxdur
Sənin ürəklərdə heykəlin tuncdur
Uzanır cənnətə indi qolların
Qovuşar ruhuna Məmməd Arazın

***

Məhəbbət yolunda yıxılmaq olar
Yetər ki, qalxmağa bir yolun olsun
Ayrılıb yenidən sevmək də olar
Yetər ki, sevməyə bir üzün olsun

Bir ürək nə qədər sevgi daşıyar
O olar, bu olar, o biri olar
Qəlb boxça deyil kim gəldi tuta
Axırda cırılıb, partlayıb daşa

Demə sevənlərim günahkar idi
Yarı yolda qoyub tərk etdi məni
De mən qəlbimi açıq qoymuşam
Hər gələn atını oynadıb getdi

Bir gün geriyə dönüb baxanda
Alnının qırışı çaşdırar səni
Yarımçıq sevgilər bir alov kimi
İçində qaynayıb yandırar səni

***

Ört üstünü yat ay bala
Getmə dərin xəyala
Qış da bitir çox az qalıb
Gül-çiçəkli bahara

Bilirəm heç sevmirsən
Soyuq qışı, qarı sən
Ayaqqabın su buraxır
Dərsə gedə bilmirsən

Dua edib nənə-bala
Tapşırarıq Yaradana
Çətin olmaz bu qışı da
Yetişərik bahara

Böyük oğlan olarsan
Sən də bir gün ucalarsan
Hər nə qədər imkan olsa
Keçmişini unutmazsan

***

Yağır küçələrə payız yağışı
Sanki illərin həsrətin yuyur
Qatır qabağına torpağı, daşı
Bu gecə gözümdən yuxunu qovur

O vaxt səninlə yağan yağışda
Möhkəmcə islanıb çox üşümüşdük
Yadına gəlirmi soyuq ayazda
Titrəyə-titrəyə biz öpüşmüşdük

Bir dəfə yenə də yağışlı gündə
Tutub əl-ələ yaman qaçırdıq
Başdan ayağa suyun içində,
Adamsız küçədə at oynadırdıq

Hər gün yağırdı bizim şəhərə
Bəzən leysan, bəzən də çiskin
Bir gün zəng edib dedin ki, mənə
İmkan olsa çətir alarsan mənə

Gölməçə olardı hər tərəf, hər yan
Ara verməzdi burda yağışlar
Hər gün ayaqların su olduğundan
Demişdin xəstəyəm, donuram yaman

Sən demə çoxunun yağışlı gündə
Varmış xatirəsi bir ürək dolu
Bilməzdim mənim də yağışlı gündə,
Düşəcək yadıma bir sevgi yolu.

***

Arzuları bir-bir gerçək etməyə
Vaxt azalıb, gecikirsən ay ürək
Bu həyatda əməl qoyub getməyə
Gecikirsən bir az tələs ay ürək

Çoxdandır heç yoxlamırsan özünü
Bəlkə sağlam, bəlkə xəstəsən bilək
Deyirdin ki, qəm bağlayıb üzünü
Gecikirsən sil dərdini ay ürək

Hiss edirəm içində bir boşluq var
Vaxt ötsə də dola bilmir bu ürək
Çox sakitsən bilirəm ki, sözün var
Tökub, boşalt öz içini ay ürək

Pünhan tutmusan neçə sirrini
Bilirəm vəfada tayın yox ürək
Hərçənd bilməsələr bəzən qədrini
Gecikirsən üsyan elə ay ürək

Əvvəlkitək zövq almaqda acizsən
Əl-qolunu itirmiş bir əlilsən
Son mənzilin uzaq deyil bilirsən
Gecikirsən aman yoxdur ay ürək

# Hibrid kitabxana

## Mədəniyyət ocağı, gələcəyə aparan yoldur, di gedək...



*Məqsəd Nur*

Əsas məsələ məhz budur: kitabxanalarımızı "günün tələbinə uyğun" necə quraq? Necə qoruyaq, bəsləyək və gələcəyə necə ötürək? Ümumiyyətlə, gələcəyin kitabxanası nə cür olacaq?

Bəri başdan deyim ki, gələcəyin kitabxanaları qətiyyən indiki kimi olmayacaq. Nə kağız kitabların qorunub-saxlandığı məkan, nə də illərin yaddaşını daşıyan, doğma kağız qoxusuna qərq olmuş bilik məbədgahı kimi yer üzündə qalmayacaq. Amma sivilizasiyamızın adında, bu planetdə yeri, tarixdə, o cümlədən virtual yaddaşlarda daim yaşayacaq...

Gələcəyin kitabxanası rəqəmsal texnologiyaların, Süni İntellektin (Sİ) üstünlük təşkil etdiyi, ictimai ünsiyyət və mübadilə, yaradıcılıq, guşənişinlik məkanına çevriləcək. Bu proses çoxdan başlayıb.

Biz kitabxana sistemini bir az maarifçi, elm və təhsil istiqamətli qurmuşuq, ona nisbi "azadlıq", çoxfunksiyalılıq verə bilməmişik. Bu vaxt ərzində kitab sənayesi ilə həmahəng fəaliyyət göstərən Qərb təcrübəsi isə kitabxananın gələcək simasını addım-addım dəyişib - elektronlaşma, ayrıca atmosferdə məkanlaşma, ictimai, intellektual mübadilə dayanacağına çevrilmə kimi istiqamətlər göz qabağındadır. Xüsusilə yeni texnologiyalar vasitəsilə əlçatanlıq, müəllif hüquqları ilə bağlı məsuliyyət də öz yerində.

İndi dünyada əksər böyük (mərkəzi) kitabxanalar təkcə iş saatlarında deyil, həm də 24\7 rejimində fəaliyyət göstərir. Oxucuların zövqünə, axtarış maraqlarına uyğun olaraq, fərdiləşmiş kitab və məqalələri nəinki əlçatan edir, həm də faydalı tövsiyələr verir. Kitabların qeydiyyatı, fonda verilməsi, qaytarılması rəqəmsal, təmassız sistemlərlə idarə edilməsi reallıqdır.

Əgər qlobal axtarış sistemləri varsa, kitabxanalar təsəvvür etdiyimiz "əlyazmalar institutu"na çevrilməyəcək ki? Gələcəkdə bu da mümkündür. Amma kitabxanadakı qiymətli informasiya resurslarının qorunması təkcə oxu və sifariş üçün deyil, həm də onların xüsusi ehtiyacı olan şəxslərə, ünvanlara çatdırılması üçün də faydalı olacaq. Bu və gələcəkdə ortaya çıxa biləcək digər müxtəlif səbəblərdən də kitabxanalar öz ənənələrini qoruyub-saxlamaqla, hibrid modellərə keçə biləcək.

İndi əsas iş kitabxanalardan bizə qalan irsi gələcəyə ötürə bilmək bacarıqlarıdır. Son vaxtlar kiçik kitabxanaların özəl şirkətlərə, idarə və müəssisələrə ayaq açması və o şirkətlərin də öz ərazisində kitaba yol açması mühüm məsələdir. Ənənəvi kitabxana əsri get-gedə bitir, dəyişir və inkişaf edir. İndi kitabxana həm də mədəniyyət ocağına çevrilir. Daha kitabxanalarda "ölü ştat cədvəli" ilə işləmək mümkün olmayacaq. Bəlkə də özəl, fərdi kitabxanaların çiçəklənməsi dövrü gələcək? Bütün bunlar "Mədəniyyət-2040" konsepsiyasının qarşısında duran mühüm məsələlərdir.

Hibrid maşınlar varsa, hibrid kitabxanalar niyə olmasın?

***

Gələr bu dünyanın bir gün bəd üzü
Qatar öz qabağına, əllini-yüzü.
Bağlanar insanın bəsirət gözü
Etmə pis rəftarı, sinə dağlama,
Dürüst olanın, yolun bağlama.

Uyma yalana, vermə sən cəza
Baş verər ömrünə acı bir qəza.
Saxla bu dünyadan köçənə əza
Əyriyə düz deyib, haqqına girmə,
Versə də birisi sənə yüz tirmə.

Keçmişi unudub, dünəni silmə
Əlində nə varsa, daimi bilmə
Dolansın beynində qoy ilmə-ilmə
Məqamın səninlə həmişəlik deyil,
İnsanı ucaldan vəzifə deyil.

Səadət, xoşbəxtlik önündə ərin,
Getmə çox dayaza, düşün ki, dərin
Nə qədər ev yıxılıb, əlində şərin,
Mən deyim biləsən sözüm tükənməz
Dünyanın əvvəli, sonu bilinməz.

# Məktəbə hazırlıq...

Yeni tədris ilinin başlanmasına az vaxt qalıb, artıq valideynlər məktəb alış-verişinə başlayıblar. Məktəbli forması, çanta, ayaqqabı, dəftərxana məhsulları və digər zəruri vasitələrin alınması üçün müəyyən xərclər yaranır. Xüsusilə, geyim və çanta kimi əsas məhsulların qiyməti ümumi büdcəyə ciddi təsir göstərə bilir.

Paytaxtdakı satış məntəqələrində müşahidələr göstərir ki, məktəb hazırlığı üçün nəzərdə tutulan məhsulların çeşidi kifayət qədər genişdir. Bununla yanaşı, qiymətlər məhsulun keyfiyyətinə, markasına və xüsusiyyətlərinə görə əhəmiyyətli dərəcədə dəyişir. Məsələn, daha sadə çantalara təxminən 20-25 manatdan başlayan qiymətlərlə rast gəlmək mümkündür. Ortopedik quruluşlu və tanınmış markalara aid modellərdə isə qiymət 120-130 manatadək yüksəlir.

Dəftərxana məhsullarında da oxşar vəziyyət hökm sürür. Bazarda daha münasib qiymətə dəftər və qələm tapmaq mümkün olsa da, materialı və hazırlanma keyfiyyəti daha yüksək olan məhsullar üçün çox vəsait tələb olunur. Buna görə də bir sıra valideynlər alış-verişi son günlərə saxlamayaraq, məktəb üçün lazım olan əşyaları əvvəlcədən almağa üstünlük verirlər.

**Valideynlər bu il nə qədər xərcləyəcək?**

## Bu il məktəbli yarmarkaları təşkil ediləcək?

Ötən illər şəhərin müxtəlif yerlərində məktəbli yarmarkaları təşkil olunurdu. Bu yarmarkalar valideynlər üçün həm daha çox məhsul seçimi, həm də qiymətləri müqayisə etmək imkanı yaradırdı. Ancaq təxmini 3 ildir ki, belə yarmarkaların təşkil edilməsi dayandırılıb.

Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamentinin məlumatına görə, bu il məktəbli yarmarkalarının təşkil edilməsi nəzərdə tutulmayıb.

## Dəftərxana məhsullarının qiyməti

Dəftərlərin qiyməti 30 qəpikdən başlayaraq 1 manata qədər təklif olunur. Sadə qələmlərin qiyməti 15 qəpikdən başlayır. Karandaşların dəyəri 80 qəpiyə, rəngli karandaş və flomaster dəstləri isə 8-16 manata qədər dəyişir. Qələm qabları 4-25 manat, pozan, xətkeş və qələmyonan kimi ləvazimatların qiyməti isə əsasən bir manatdan başlayaraq 3-4 manata qədər artır.

Rəsm dərsləri üçün tələb olunan albom, plastilin, boya, yapışqan, qayçı və digər ləvazimatlar da satışdadır. Bu məhsulların qiyməti əsasən 1-15 manat aralığında dəyişir.



## Əlavə xərclər də var...

Bunlardan başqa, məktəbli çantalarının qiyməti markadan asılı olaraq 40-80 manat arasında dəyişir.

Bəzi valideynlər övladlarına su qabı, yemək qabı, əlavə dərs vəsaitləri də alır. Bu da orta hesabla 30-50 manat əlavə xərc yaradır.

Nəticədə, bir ibtidai sinif şagirdinin məktəbə hazırlanması valideynlərə orta hesabla 250-355 manat arasında başa gəlir. Daha keyfiyyətli geyim və ləvazimat seçildikdə isə bu məbləğ 400 manatı keçə bilər.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4498**
**Sifariş: 1079**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova